Xalqın qəzeti!

# Xalq qəzeti

№ 153 (30847) 26 iyul 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan–Gürcüstan–Qazaxıstan: Qlobal tranzitə regional körpü



**Gürcüstanın İqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvilinin son günlər Azərbaycana və Qazaxıstana etdiyi səfərlər Orta Dəhlizin inkişafı və regional əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Səfər çərçivəsində keçirilən görüşlərdə nəqliyyat, logistika, ticarət və enerji sahələrində əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri müzakirə olunub. Tərəflər Orta Dəhlizin tam potensialının gerçəkləşdirilməsi üçün iştirakçı ölkələr arasında daha sıx koordinasiyanın vacibliyini vurğulayıblar.**

Bu məqsədlə müştərək investisiya təşəbbüslərinin irəli sürülməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və proseslərin sürətləndirilməsi əsas prioritetlər kimi önə çəkilir. Xüsusilə multimodal daşımaların təşkili üçün birgə müəssisələrin yaradılması, yüklərin çatdırılma vaxtının optimallaşdırılması və tranzit tariflərinin vahid sistemlə tənzimlənməsi istiqamətində razılaşdırılmış addımların atılması çox vacibdir.

Bəs rəsmi Tbilisi üçtərəfli əməkdaşlığa niyə bu qədər önəm verir və bunun nə kimi üstünlükləri var?

ardı səhifə ⇨ 4

## “Kəpəz” sınaq laboratoriyası deyil!

səhifə ⇨ 11

## Zəngəzur dəhlizi və sülhə təhdid: Əvvəl ABŞ, indi Rusiya

*Peskov nə deməyə çalışırdı, Ermənistanın istəyi nədir?*






**İlk baxışdan, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun Zəngəzur dəhlizi ilə bağlı açıqlamasını adi qarşılamaq olar. Amma bəribaşdan deyək ki, bunu mümkün saymırıq. Çünki onun söylədiklərinin Ermənistanın maraq və mənafeləri ilə uzlaşdığı qənaətindəyik. Yazımızda bu qənaəti əsaslandırmağa çalışacaq, Rusiya rəsmisinin dediklərinin nədən qaynaqlandığına aydınlıq gətirəcək və yekun nəticəyə gələcəyik.**

Beləliklə, D.Peskov bildirib ki, Zəngəzur dəhlizi ilə bağlı məsələ Ermənistanın və Azərbaycanın suveren işidir. Ardınca isə o, Rusiyanın ölkələr arasında tezliklə sülhün yaranmasının tərəfdarı kimi çıxış etdiyini vurğulayıb.

*(ardı 3-cü səhifədə)*



## Beynəlxalq maliyyə qurumu dayanıqlı inkişafı dəstəkləyir

səhifə ⇨ 8

## Lider–dövlət–xalq



səhifə ⇨ 6

## Münaqişə və geosiyasətdə Azərbaycan nümunəsi



**Xankəndidə keçirilmiş III Şuşa Qlobal Media Forumu Azərbaycanın müasir tarixi və beynəlxalq mövqeyi baxımından strateji əhəmiyyət daşıyan hadisə kimi yadda qaldı. Forumda Prezident İlham Əliyevin dünya mediası qarşısında səsləndirdiyi fikirlər təkcə Azərbaycanın qələbə sonrası dönəmdə həyata keçirdiyi siyasətin konturlarını deyil, həm də münaqişə vəziyyətində olan dövlətlər üçün tətbiq edilə biləcək unikal bir modelin əsaslarını ortaya qoydu. Forumda xüsusilə ukraynalı jurnalist Dmitri Qordonun ünvanladığı sual və Prezident İlham Əliyevin verdiyi cavab tədbirin ideoloji çərçivəsini dərinləşdirdi. “Heç vaxt işğalla barışmayın” fikri Azərbaycanın strateji iradəsinin və nəticəyə yönəlmiş dövlətçilik təfəkkürünün mahiyyətini özündə cəmləyir.**

ardı səhifə ⇨ 6

## Siyasi korlar – gerçəyə xor baxanlar




səhifə ⇨ 4

## Milli fizika elminin qərargahı



səhifə ⇨ 9

## Çinin lazer texnologiyası kosmosda yeni cəbhə açır



səhifə ⇨ 11

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328 (Cild I); 2024, № 3, maddə 263, № 10, maddə 1124; 2025, № 4 (I kitab), maddə 333) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 6.2-ci bəndində "1 068 400 000 (bir milyard altmış səkkiz milyon dörd yüz min)" sözləri "1 153 400 000 (bir milyard yüz əlli üç milyon dörd yüz min)" sözləri ilə əvəz edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsinin icrası "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.11.6.6.1-ci abzası ilə Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond) nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) üçün 2025-ci ilin dövlət büdcəsindən Fonda ayrılan 85 000 000 (səksən beş milyon) manat hesabına təmin edilsin.

**3** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

**4** Fond bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyul 2025-ci il**

# Azərbaycan–Somali əməkdaşlıq imkanları müzakirə edilib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 25-də Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdisalam Abdi Ali ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə Azərbaycanın Afrika dövlətləri, o cümlədən Somali ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyi diqqətə çatdırılıb.

İki ölkə arasında beynəlxalq təşkilatlar, xüsusilə də BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstəkdən məmnunluq ifadə olunub.

Görüş zamanı Azərbaycan ilə Somali arasında sərmayə qoyuluşu, kənd təsərrüfatı, dövlət xidmətlərinin göstərilməsi, yaşıl enerji, humanitar və digər sahələrdə əməkdaşlıq imkanları nəzərdən keçirilib.

# Ceyhun Bayramovun türkiyəli həmkarı ilə telefon müzakirəsi

**İyulun 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı aparılıb.**

Telefon danışığı zamanı Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə olunub. Bununla yanaşı, regional və beynəlxalq müstəvidə müşahidə olunan təhlükəsizlik problemləri nəzərdən keçirilib.

Azərbaycan-Türkiyə qardaşlığına əsaslanan müttəfiqlik münasibətlərinin bütün səviyyə və platformalarda uğurla davam etdirildiyi məmnunluqla qeyd edilib.

Ceyhun Bayramov həmkarını Azərbaycan-Ermənistan normallaşma prosesi və onun müxtəlif aspektləri, sülh sazişi üzrə cari vəziyyət və perspektivlər, habelə mövcud maneələr və onların həlli istiqamətində səylər barədə ətraflı məlumatlandırıb.




# Slovakiyalı səfirin ölkəmizdə fəaliyyəti başa çatıb

**İyulun 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Slovakiyanın səfiri Milan Layçakı ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**



Səfirə Azərbaycanda fəaliyyəti müddətində Azərbaycan-Slovakiya ikitərəfli və çoxtərəfli əməkdaşlığının inkişafı istiqamətində göstərdiyi səylərə görə təşəkkür edilib, ona gələcək fəaliyyətində uğurlar arzulanıb.

Görüşdə Azərbaycan ilə Slovakiya arasında mövcud əməkdaşlıq məsələləri, habelə regionda və dünyada hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb. İqtisadiyyat, ticarət, elm, mədəniyyət və sair sahələr üzrə əməkdaşlığın geniş perspektivlərinin mövcud olduğu, bu istiqamətdə qarşılıqlı fikir mübadilələri və fəaliyyətin davam etdirilməsinin əhəmiyyəti qeyd edilib.

Milan Layçak Azərbaycanda fəaliyyəti müddətində göstərilən dəstək və səmimi qəbula görə təşəkkür edib, Azərbaycan-Slovakiya münasibətlərinin daha da inkişafı istiqamətində arzularını çatdırıb.

***XQ***

# Anomal istilərlə əlaqədar Azərbaycan Ordusunda tədbirlər görülür



**Son vaxtlar davam edən anomal istilərlə əlaqədar Azərbaycan Ordusunun hərbi qulluqçuları arasında istivurma və günvurma hallarının qarşısının alınması məqsədilə birlik, birləşmə və hərbi hissələrdə, eləcə də, xüsusi təyinatlı təhsil müəssisələrində bir sıra tədbirlər həyata keçirilib.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, hərbi qulluqçuların istivurma və günvurmadan qorunması, profilaktikası, tibbi yardımın göstərilməsi, sanitariya maarifi işlərinin aparılması sistematik təşkil olunub və nəzarət gücləndirilib.

Döyüş hazırlığı və gündəlik fəaliyyət tədbirləri günəş şüalarının birbaşa düşdüyü ərazidə deyil, əsasən kölgəlikdə keçirilir, hərbi qulluqçular kazarma şəraitində yerləşdirilir və açıq səma altında görülən xidməti işlərə cəlb olunmur.

Əsgər yataqxanaları, yeməkxanalar, tibb məntəqələri, digər xidməti və inzibati otaqlarda kondisionerlər quraşdırılıb. Bütün otaqlarda ikitərəfli hava axınının olması nəzarət altında saxlanılır.

***XQ***

# Daxili İşlər Nazirliyində əməliyyat müşavirəsi



**İyulun 25-də Daxili İşlər Nazirliyində işğaldan azad olunmuş ərazilərdə xidmətin təşkili və ictimai təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar onlayn formatda əməliyyat müşavirəsi keçirilib. Bu barədə DİN-in mətbuat xidmətindən məlumat verilib.**



Bildirilib ki, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə keçirilən müşavirədə bölgədə mövcud əməliyyat şəraiti, şəxsi heyətin xidməti fəaliyyəti və əhali ilə qurulmuş qarşılıqlı əlaqə təhlil edilib.

Vurğulanıb ki, həmin ərazilərdə ictimai qaydanın qorunması, yerli əhalinin, turistlərin, eləcə də əmlak və şəxsi təhlükəsizliyin təmin olunması, maarifləndirici-profilaktik tədbirlərin davam etdirilməsi prioritet istiqamətlərdən olmaqla diqqətdə saxlanılmalıdır.

Müşavirədə xüsusilə yanğın təhlükəsizliyi məsələlərinə geniş yer ayrılıb. Yay mövsümündə havaların isti və quraq keçməsi fonunda meşəlik və açıq sahələrdə yanğın təhlükəsinin artdığı və bununla əlaqədar profilaktik tədbirlərin intensivləşdirildiyi diqqətə çatdırılıb.

Aidiyyəti xidmət rəhbərlərinə bölgədə nəzarətin gücləndirilməsi, riskli sahələrdə fasiləsiz monitorinqin aparılması, vətəndaşlar arasında odla ehtiyatsız davranışın doğura biləcəyi təhlükələrlə bağlı davamlı izahat işlərinin həyata keçirilməsi, xidmətin yüksək peşəkarlıqla və əzmlə aparılmasının vacibliyi barədə konkret tapşırıqlar verilib.

Diqqətə çatdırılıb ki, müvafiq ərazilərdə asayişin təmini, əmlak və ekoloji təhlükəsizliyin qorunması, o cümlədən yanğınla bağlı məsuliyyət tədbirlərinin görülməsi sahəsində daxili işlər orqanlarının üzərinə düşən vəzifələr tam icra olunmalıdır.

**Regionlarda qəbullar**

# Anar Əliyev Daşkəsəndə qəbul keçirib

**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Daşkəsən rayonunda Daşkəsən və Göygöl rayonlarının sakinlərinin müraciətlərini dinləyib.**

Həmin gün vətəndaşlar məşğulluq, əlillik, mənzil təminatı, ünvanlı sosial yardım və digər məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb.

***XQ***



# Energetika naziri İsmayıllıda vətəndaşların müraciətlərini dinləyib



**Energetika naziri Pərviz Şahbazov İsmayıllı rayon Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.**

Görüşdə vətəndaşların elektrik enerjisi və təbii qaz təchizatı, yaranmış borc və cərimələr, məşğulluq imkanları ilə bağlı dəstək, habelə sosial və inzibati xarakterli digər məsələlərə dair müraciətləri dinlənilib.

Qaldırılan məsələlərin mövcud normativ-hüquqi aktlara uyğun şəkildə araşdırılması və operativ həlli məqsədilə müvafiq tapşırıqlar verilib.

Qəbulda İsmayıllı, Şəki, Oğuz, Qəbələ, Qax və Mingəçevirdən olan 23 vətəndaş iştirak edib.

(əvvəli 1-ci səhifədə)

# Zəngəzur dəhlizi və sülhə təhdid: Əvvəl ABŞ, indi Rusiya






Məlumdur ki, Zəngəzur dəhlizi 44 günlük müharibədən sonra meydana çıxmış reallıqdır. Savaşın isə Ermənistan üçün acı nəticələrini təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat var. Sənədin 9-cu bəndi Naxçıvana maneəsiz yoldan bəhs edir: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

Burada “maneəsiz hərəkət” məntiqi önəmlidir. “Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir” fikri də həmçinin. Ermənistan maneəsiz hərəkətə imkan tanımaq istəmir. Rusiya FTX-nin sərhəd xidmətindən isə, ümumiyyətlə, söz açan yoxdur. Halbuki, 9-cu bənd, müəyyən mənada, tarixə əsaslanırdı.

Birincisi, keçmiş SSRİ zamanında Naxçıvana qatarlar hərəkət edib və yol Ermənistan SSR-in yox, Azərbaycan SSR-in tabeliyində olub. Daha dəqiq desək, Azərbaycan SSR-in dəmir yolları ilə bağlı müvafiq qurumunun. İkincisi, elə o dönəmdə də sözügedən istiqamətdə rus sərhədçiləri keşik çəkiblər. Çünki İran amili var idi. Ermənistan müstəqil dövlətə çevriləndən sonra da bu amil əhəmiyyətini saxladı. Yəni, ölkənin İranla sərhədində rus hərbçiləri keşik çəkdilər. Hətta, durum bu günlərədək dəyişməz qaldı.

Haşiyə çıxaq ki, artıq sərhəddə ruslar yoxdur, orada erməni hərbçilərinin özləri dayanıblar. Amma heç eşitmədik ki, Rusiyada kimsə məsələni Ermənistanın suverenliyi prizmasından dəyərləndirsin. Əksinə, İrəvanın Moskvanı Cənubi Qafqazdan sıxışdırmağa çalışdığı bildirildi.

Üstəlik, Ermənistan suveren saydığı ərazilərində Avropa İttifaqının mülki müşahidə missiyasını yerləşdirib. Müşahidəçilərin casusluq fəaliyyəti həyata keçirdikləri də məlumdur. Bunu Prezident İlham Əliyev də vurğuladı. Dövlətimizin başçısı III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə dedi: “Onlar artıq dırnaqarası “Avropa müşahidəçiləri”ni də sərhədə dəvət ediblər. Onlar sərhəddəki peşəkar casuslardır və İrana qarşı casusluq fəaliyyəti aparırlar. Xüsusilə də bu son İran-İsrail münaqişəsi zamanı onlar İran sərhədi boyu hərəkət edirlər. Düzdür, onlar binokl vasitəsilə bizə də baxırlar, ancaq biz də öz ərazimizdən onları izləyirik”.

*

Başqa bir məqama diqqət yetirək. Ermənistanın baş naziri Nikol Paşinyan özünü elə aparır ki, sanki, üçtərəfli bəyanata imza atan o deyil, başqasıdır. Ölkəmizin rəhbərliyi isə Naxçıvana yolu “Azərbaycandan Azərbaycana yol” kimi görür. Rəsmi Bakı ərazidə hansısa gömrük və sərhəd nəzarətinin həyata keçirilməsini məqbul saymır. Bunu Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə yenidən vurğuladı. Ölkəmizin yanaşmasındakı prinsipiallığı əsaslandırmaq üçün lap əvvələ, yəni üçtərəfli bəyanatın imzalandığı günə qayıdaq. Dövlətimizin başçısı xalqa 10 noyabr 2020-ci il tarixdəki müraciətində bildirmişdi: “Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidi tələblərim şadam ki, qəbul olundu. Beləliklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi”.

Prezident İlham Əliyevin diqqətə çatdırdığımız fikirlərindən bir neçə nəticə çıxarmaq mümkündür. Birincisi, üçtərəfli bəyanata 9-cu bəndin məhz dövlətimizin başçısının təkidi ilə daxil edilməsi üzərində dayanaq. Deməli, ölkəmizin mütləq qələbəsi ilə başa çatmış II Qarabağ müharibəsi zamanı dövlətimizin hədəfi həm də Naxçıvana maneəsiz yol olub və məğlub Ermənistanın baş naziri Paşinyanın üçtərəfli bəyanatda yer almış imzası rəsmi İrəvanın Azərbaycanın tələbini qəbul etməsidir. Bir daha vurğulayaq ki, 9-cu bəndin “maneəsiz yol” məntiqi prinsipial əhəmiyyət daşıyır və bunu danmaq, görməzdən gəlmək, yumşaq desək, məsuliyyətsizlikdir.

İkincisi, Naxçıvanın blokadası bölgənin işğalına yönələn addım idi və bu mənfur plan hələ 1923-cü ildə Naxçıvan Muxtar Respublikası yaradılanda işə salınmışdı. 1990-cı illərdə mövcud istiqamətdə cəhdlərin göstərilməsi də, ulu öndər Heydər Əliyevin təcavüzkarlıq meyillərinin qarşısını alması da məlumdur. Deməli, zamanında Naxçıvanla Azərbaycan digər ərazilərinin quru əlaqəsinin kəsilməsi həm də erməni avantürizminin perspektivinə qırmızı işıq yandırmaq idi və hazırda buna imkan tanımamaq Azərbaycan üçün strateji məsələdir. Bu səbəbdən də qədim diyarımıza yol maneəsiz olmalıdır.

Naxçıvana yolda Rusiya sərhədçilərinin keşik çəkmələri müddəasına gəlincə, məsələ Moskva üçün, müəyyən mənada, avans mahiyyəti daşıyırdı. Çünki Cənubi Qafqazda jandarm funksiyasını yerinə yetirmək istəyən Rusiyadır. Bir halda ki, Azərbaycan Naxçıvana maneəsiz yol əldə edir, yolun yan-yöyrəsində hansı qüvvələrin dayanması rəsmi Bakı üçün heç bir əhəmiyyət daşımır. Üstəlik, vurğuladıq ki, həmin istiqamətdə rus hərbçiləri həmişə olublar və rəsmi İrəvan duruma ərazi bütövlüyü və suverenlik pəncərəsindən baxmayıb.

Əlqərəz, Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumu zamanı Zəngəzur dəhlizinin ABŞ şirkətinə icarəyə verilməsinə dair sualı cavablandırarkən, çox aydın şəkildə bildirdi ki, Azərbaycan öz ərazisində heç bir xarici qüvvə və ya operator təşkilatın, icarədarın mövcudluğunu qəbul etməyəcək. Dövlətimizin başçısı Ermənistanın seçimdə sərbəst olduğunu da vurğuladı. Hərçənd, bu günlərdə rəsmi İrəvanın ABŞ şirkəti ilə bağlı məsələyə razılıq vermədiyi məlum oldu. Halbuki, vaxtilə onu ortaya atan məhz Ermənistan rəhbərliyi idi. Əlbəttə, həmin vaxt Birləşmiş Ştatlarda kimin dövlət başçısı postunu tutduğu önəmli detaldır. Məlumdur ki, Trampdan əvvəlki Bayden administrasiyası qatı ermənipərəst idi.

Əslində, prinsipial yanaşsaq, üçtərəfli bəyanatda yer alan Rusiya FTX-sı ilə bağlı müddəa da İrəvanın seçimidir. Paşinyan həmin müddəa ilə razılaşmaya, yəni sənədə imza atmaya və hərbi əməliyyatları davam etdirə bilərdi. Amma bacarmadı, çünki Ermənistan müharibə aparacaq vəziyyətdə deyildi. Ancaq Nikol sonradan üçtərəfli bəyanatın 9-cu bəndini danmağı bacardı. Ölkəmizə gəlincə, rəsmi Bakı Zəngəzur dəhlizi kimi gündəmə gətirdiyi Naxçıvana yol məntiqini beynəlxalq ictimai rəydə möhkəmləndirdirdi. Burada uduşsuz çıxan Rusiyadır. Moskvanın mənafeyinin təmin olunmamasının baiskarı isə Azərbaycan yox, Ermənistandır.

*

Bəli, N.Paşinyan Rusiya FTX-nin Naxçıvana yolda keşik çəkməsinə qarşı çıxdı, habelə ölkəmizin “Azərbaycandan Azərbaycana yol” məntiqini qəbul etmədi. Durumu Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin pozulmasının yolverilməzliyi kimi əsaslandırdı. Baxmayaraq ki, ötən ilin avqustunadək fəaliyyəti intensiv xarakter daşımış Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin işçi qrupu Naxçıvana yolla bağlı Ermənistanın suverenliyinə təhlükə törətməyən formul tapmışdı. Paşinyan iqtidarı həmin formulla da razılaşmayaraq sözügedən təsisatın işini iflic etdi. Rusiyanı növbəti dəfə heçə saymaq məhz bu idi.

Sözümüz ondadır ki, Rusiya Prezidentinin mətbuat katibi D.Peskov Zəngəzur dəhlizi ilə əlaqədar məsələnin Azərbaycanın və Ermənistanın suveren işi olduğunu bütün bunların fonunda vurğulayıb. O zaman meydana suallar çıxır. İlk sual isə budur: Rusiya üçtərəfli bəyanat məntiqindən uzaqlaşıbmı? İkinci sual: Yəni, Kreml, həqiqətənmi, Azərbaycan və Ermənistanın vasitəçilərsiz danışıqlar aparmasını dəstəkləyir? Daha doğrusu, Rusiya hesab edirmi ki, hazırda Bakı-İrəvan təmasları vasitəçilərsiz struktura malikdir?

Suallara cavab olaraq bildirək ki, Rusiya, heç bir halda, üçtərəfli bəyanat məntiqindən uzaq durmur. Bunu ölkənin rəsmiləri də deyiblər. Sonuncu dəfə bir neçə gün əvvəl Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova, ondan bir qədər əvvəl isə nazir müavini Mixail Qaluzin bildirmişdi ki, Azərbaycan-Ermənistan normallaşmasında başlıca istinadgah 2020-2022-ci illərdə qəbul edilmiş üçtərəfli bəyanatlardır. Nəzərə alaq ki, Kreml təmsilçilərinin açıqlamaları Prezident İlham Əliyevlə baş nazir N.Paşinyanın iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidəki görüşü fonunda səslənmişdi. Rusiya tərəfi görüşü pozitiv qiymətləndirsə də, keçmiş gündəliyi yada salmağı da unutmamışdı. Görəsən niyə?

Suala cavab baxımından həmin M. Zaxarovanın fikirlərini xatırladaq. Xanım Zaxarova Qərbin Bakı-İrəvan normallaşmasına müdaxiləsinin xoşagəlməz mahiyyət daşıdığını önə çəkib. Əlbəttə ki, o, ABŞ-ın fəallığını nəzərdə tutub. O fəallıq ki, özünü Zəngəzur dəhlizi kontekstində də göstərir. O fəallıq ki, onda ümumən Azərbaycanın Zəngəzur dəhlizi məntiqinin beynəlxalq ictimai rəydə möhkəmləndirilməsi amili var. Əlbəttə, Ermənistan belə qoyuluşla razılaşmır və bu səbəbdən Paşinyan gözlənilmədən Rusiyaya yollanır, ölkənin baş naziri Mixail Mişustinlə görüşür. Diqqət yetirək ki, istər Zaxarovanın Qərbin sülh prosesinə müdaxiləsinə dair açıqlaması, istərsə də Peskovun fikirləri məhz həmin görüşdən sonraya təsadüf edir.

Konkret olaraq, Peskovun mövqeyinə gəlincə, vurğuladıqlarımız məqamlar əsasında ümumi nəticə budur ki, Rusiya həm Qərb vasitəçiliyinin yolverilməzliyi, həm də Zəngəzur dəhlizi xüsusunda məsələnin iki Cənubi Qafqaz ölkəsinin suveren işi olduğuna dair məntiqi qabartmaqla, dəhliz mövzusunda Ermənistanın tərəfini tutur. Axı ərazi bütövlüyü və suverenlik klişesini qabardan məhz rəsmi İrəvandır. Əsl mahiyyətin məhz göstərdiyimiz kimi olduğunu müəyyənləşdirmək üçün isə çox düşünməyə ehtiyac yoxdur. Yenə bəzi suallar ünvanlayaq. Məsələn, necə olurdu ki, Rusiya öz qoşunlarının Ermənistan ərazisində mövcudluğunu ikincinin ərazi bütövlüyünün pozulması qismində dəyərləndirmirdi, indi yadına suverenlik düşür? Ümumən, Rusiya üçün keçmiş MDB ölkələrinin ərazi bütövlüyü və suverenliyi anlayışı varmı? Əlbəttə ki, xeyr!

*

Sonda bir məqamın da üzərində dayanaq. Prezident İlham Əliyev baş nazir Paşinyanla Əbu-Dabidəki görüşünü, ümumən, müsbət qiymətləndirsə də, dövlətimizin başçısının açıqladığı detallar həmin təmasın heç də rəvan müstəvidə keçmədiyinin sübutudur: “Mən cənab Paşinyana dedim ki, siz yəqin ümid edirdiniz ki, xanım Harris qalib gələcək və ağ at üzərində olacaqsınız. Ancaq bu, baş vermədi. Mən buna tamamilə əminəm ki, Tramp qalib olmasaydı, onlar bununla razılaşmayacaqdılar. Onlar layiq olduqlarından da, həzm edə biləcəklərindən də daha çox parça qoparmaq istəyirdilər”.

Belə bir nəticə meydana çıxır ki, Paşinyanın Rusiyaya səfəri və səfər fonunda Kreml təmsilçilərinin bəyanatları, eləcə də ABŞ-dakı və Qərbin bir sıra ölkələrindəki erməni lobbi və diaspor təşkilatlarının xaricdəki ermənipərəstləri hərəkətə keçirmələri eyni zəncirin halqalarıdır.

Deməli, əvvəldə anonsunu verdiyimiz yekun nəticə budur: Prezident İlham Əliyevin təbirincə desək, daha çox parça qoparmaq istəyən Ermənistan sülh prosesindən yayınır. Əvvəl, yəni Baydenin Prezidentliyi zamanında bunu ABŞ-a güvənərək edirdi, indi isə arxalandığı Rusiyadır. İrəvanın yanaşmasının hansı gələcək təzahürləri mümkündür və həmin təzahürlər nəyə gətirib çıxara bilər, bu haqda fikir yürütmək, müəyyən ehtimalları gündəmə gətirmək olar. Ancaq, hələlik, buna ehtiyac duymuruq. Necə deyərlər, yaşayarıq görərik.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Milli Məclisin Fransa parlamentində irəli sürülmüş layihə barədə bəyanatı



**Milli Məclis Korsika Xalqına Dəstək Qrupunun Fransa Milli Assambleyasında irəli sürülmüş yeni qətnamə layihəsinə dair bəyanat yayıb.**

Sənəddə deyilir ki, bu günlərdə Fransa Milli Assambleyasında ermənipərəst və anti-Azərbaycan ünsürlər tərəfindən yeni qətnamə layihəsi irəli sürülüb: “Qətnamə layihəsinin müəlliflərinin kimliyi artıq həmin layihənin mahiyyətini açıq şəkildə ortaya qoyur. Regionumuzda baş verən proseslərə növbəti müdaxilə cəhdi olan bu layihədə adəti üzrə reallıqlar təhrif olunur, Azərbaycanın ərazi bütövlüyünə açıq hörmətsizlik nümayiş etdirilir və ölkəmiz əleyhinə yalan ittihamlar ortaya atılır”.

Bəyanatın davamında göstərilir ki, Azərbaycanla Ermənistan arasında xüsusən Abu Dabi görüşündən sonra sülh gündəliyinin irəliləməsi müəyyən qüvvələrin maraqlarına heç bir halda cavab vermir: “Onlar vəziyyəti yenidən gərginləşdirmək və sülh gündəliyinə xələl gətirmək xəttini seçiblər. İndiki məqamda Fransa Milli Assambleyasında irəli sürülmüş bu lüzumsuz qətnamə cəhdi də bu davranışın növbəti bariz nümunəsidir.

Digər tərəfdən, qeyd etməliyik ki, Yeni Kaledoniya ilə Fransa arasındakı sonuncu razılaşmalar artıq Yeni Kaledoniyanın bir dövlət kimi formalaşma istiqamətində inamla irəlilədiyini göstərir. Belə bir vəziyyətdə vətəndaş cəmiyyəti təsisatı və qeyri-hökumət təşkilatı olan Bakı Təşəbbüs Qrupunun Yeni Kaledoniyaya göstərdiyi dəstək Fransanı olduqca qıcıqlandırır. Əminliklə demək olar ki, Fransa tərəfi Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə özünəməxsus üslubda – həmin qətnamə layihəsi ilə cavab verməyə çalışır”.

Bəyanatda qeyd edilir ki, Milli Assambleyada indiyədək ölkəmiz əleyhinə qəbul edilmiş qətnamələrin mahiyyəti bundan ibarətdir ki, Fransa Cənubi Qafqazda sülh gündəliyindən tamamilə kənarda qalmasını həzm edə bilmir: “Bu səbəbdən də bütün vasitələrdən istifadə edərək regionda vəziyyəti yenidən gərginləşdirməyə cəhd edir. Bütün bunlara ən böyük dəstəyi də erməni lobbisi və ermənipərəst dairələr verir. Ölkəmizə qarşı atılan bu kimi addımlarda bir-biri ilə əlaqəli olan vahid bir şəbəkənin fəaliyyəti özünü aydın şəkildə büruzə verir”.

Bəyanatın sonunda bildirilir ki, müəyyən qüvvələrin maraqlarını reallaşdırmağa çalışan həmin şəbəkənin ayrı-ayrı ünsürləri İsveçrə parlamentində, Fransa parlamentində, ABŞ Konqresində müxtəlif təxribatlar ortaya ataraq regiondakı sülh gündəliyini pozmağa çalışırlar: “Lakin onlar bilməlidir ki, bu kimi təxribatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətə zərrə qədər də təsir göstərə bilməz və Cənubi Qafqaz regionunda baş verən proseslərə xarici müdaxilələrə heç bir halda icazə verilməyəcək”.

**XQ**

# Beşinci “Yüksəliş” müsabiqəsinin qalibləri mükafatlandırıldı



**İyulun 25-də ADA Universitetində beşinci “Yüksəliş” müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

Mərasimdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, “Yüksəliş” müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, Prezidentin köməkçisi, “Yüksəliş” müsabiqəsinin Təşkilat Komitəsinin üzvü Anar Ələkbərov, səhiyyə naziri Teymur Musayev, mədəniyyət naziri Adil Kərimli, ADA Universitetinin rektoru Hafiz Paşayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, gənclər və idman nazirinin müavini, “Yüksəliş” müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev, habelə ekspertlər və qaliblər iştirak ediblər.

Çıxış edənlər “Yüksəliş” müsabiqəsinin ölkədə effektiv idarəçiliyin təşviqi və yeni nəsil idarəçilərin yetişdirilməsi baxımından strateji platformaya çevrildiyini vurğulayıblar. Bildirilib ki, müsabiqə təkcə seçim və qiymətləndirmə mərhələlərindən ibarət olmayıb, həm də iştirakçılar üçün praktiki bilik və təcrübə imkanları yaradaraq onların fərdi və peşəkar inkişafına mühüm töhfə verib.

Tədbirin sonunda beşinci “Yüksəliş” müsabiqəsinin qaliblərinə diplomlar təqdim olunub.

Qeyd edək ki, qaliblər qarşıdakı dövrdə idarəetmə sahəsində daha geniş imkanlara sahib olmaqla yanaşı, 20 min manat məbləğində pul mükafatı, həmçinin birillik fərdi Mentorluq proqramından faydalanmaq imkanı əldə edirlər.

**XQ**

# Azərbaycan–Gürcüstan–Qazaxıstan: Qlobal tranzitə regional körpü

(əvvəli 1-ci səhifədə)

Əvvəlcə onu qeyd edək ki, Tbilisinin bu yanaşması həm regional logistik inteqrasiyanı gücləndirir, həm də Orta Dəhlizin Avropa ilə Asiya arasında rəqabətqabiliyyətli və etibarlı nəqliyyat marşrutu kimi mövqeyini möhkəmləndirir.

Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında formalaşan üçtərəfli əməkdaşlıq modeli son illər regional sabitliyin, geoiqtisadi transformasiyanın və qlobal enerji təhlükəsizliyinin mühüm dayaqlarından birinə çevrilib. Bu strateji tərəfdaşlıq təkcə adıçəkilən ölkələrin deyil, həm də Avropa və Asiya arasında körpü rolunu oynayan geniş bir regionun maraqlarına cavab verir. Əməkdaşlığın mərkəzində dayanan Orta Dəhliz artıq, sadəcə, bir nəqliyyat marşrutu deyil, həm də geosiyasi və iqtisadi inteqrasiyanın real təzahürüdür.

Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən Orta Dəhliz dəyişən qlobal tədarük zəncirləri və artan logistik təhlükəsizlik çağırışları fonunda çevik, səmərəli və sabit alternativ kimi fərqlənir. Dəhliz üzərində qurulan çoxşaxəli əməkdaşlıq həm iqtisadi inkişafı təşviq edir, həm də siyasi sabitliyin qorunmasına töhfə verir.

Azərbaycan bu əməkdaşlıqda aparıcı mövqe tutur. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və Bakı–Tbilisi–Qars dəmir yolu kimi mühüm infrastruktur layihələri ölkənin Orta Dəhlizin əsas qovşaqlarından birinə çevrilməsini təmin edib. Azərbaycanın təşəbbüsləri nəticəsində regionun logistika və nəqliyyat potensialı keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

Gürcüstanın geostrateji mövqeyi və Qara dənizə çıxışı isə dəhlizin Avropa bazarları ilə birləşdirici rolunu gücləndirir. Gürcüstan dəhliz boyu keçən yüklərin Avropa ilə əlaqələndirilməsində həlledici keçid məntəqəsinə çevrilib. Ölkə bu statusunu möhkəmləndirmək üçün həm infrastruktur, həm də gömrük sahəsində islahatlara üstünlük verir.

Qazaxıstan isə Orta Asiyanın ən böyük iqtisadiyyatına malik ölkə olaraq, dəhlizin şərq cinahını gücləndirir. Neft, qaz və digər təbii sərvətlərin Qərbə nəqlində alternativ marşrut kimi Orta Dəhliz Qazaxıstan üçün strateji əhəmiyyət daşıyır. 2024-cü ilin statistik göstəricilərinə əsasən, Qazaxıstan və Gürcüstan arasında Azərbaycandan keçməklə quru yolla 1 milyon tona yaxın, dəmir yolu ilə isə 2,7 milyon tondan artıq yük daşınıb. Bu rəqəmlər dəhlizin reallıqda işlək olduğunu və region ölkələri üçün iqtisadi baxımdan effektiv vasitəyə çevrildiyini göstərir.

Azərbaycan ərazisi ilə 2025-ci ilin ilk yarısında Orta Dəhliz vasitəsilə 1 milyon 741 min ton tranzit yük daşınıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 7 faiz artım deməkdir. Eyni zamanda, Bakı limanında daşınan konteynerlərin sayı 53 min TEU-yə çatıb. Bu göstərici əvvəlki illə müqayisədə 71 faiz çoxdur. Statistik məlumatlar göstərir ki, dəhliz üzərində yük dövriyyəsi ilbəil artır və bu, Orta Dəhlizin dünya ticarət sistemində mühüm rolunu təsdiqləyir.

Orta Dəhliz region ölkələrinin ticarət və iqtisadi inkişaf potensialını artırmaqla yanaşı, onların Avropa və Asiya bazarlarına inteqrasiyasını da asanlaşdırır. Xüsusilə limanlara çıxışın təmin olunması, gömrük prosedurlarının sadələşdirilməsi və rəqəmsallaşma kimi amillər ticarət dövriyyəsinin səmərəliliyini artırır,ə regionun qlobal iqtisadi sistemdə güclü mövqe tutmasına şərait yaradır.

Dəhlizə olan maraq regional çərçivədən kənara çıxaraq, Türkmənistan, Özbəkistan, eləcə də Mərkəzi Asiyanın digər ölkələrini də əhatə etməyə başlayır. Bu ölkələrin layihəyə inteqrasiyası ilə Orta Dəhliz daha geniş bir coğrafiyanı əhatə edən, çoxölçülü iqtisadi platformaya çevrilə bilər. Beləliklə, Orta Dəhliz yalnız fiziki bağlantı vasitəsi deyil, həm də region dövlətləri arasında yeni əməkdaşlıq formatlarının yaranmasına zəmin yaradan strateji təşəbbüsdür.

Azərbaycan uzun illərdir ki, Xəzər hövzəsindəki zəngin enerji ehtiyatları hesabına Qərb bazarlarının etibarlı təchizatçısı kimi çıxış edir. Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri və Bakı–Tbilisi–Ərzurum (BTƏ) qaz kəməri vasitəsilə Azərbaycanın karbohidrogen ehtiyatları beynəlxalq bazarlara çıxarılır və bu marşrutlar regionun enerji xəritəsində strateji mövqe tutur. Gürcüstan bu enerji axınının əsas tranzit qovşağı olaraq Azərbaycanın ixrac infrastrukturunun ayrılmaz hissəsinə çevrilib. Onun ərazisindən keçən neft-qaz kəmərləri yalnız iqtisadi gəlir mənbəyi deyil, həm də regionda sabitliyin və geosiyasi balansın əsas sütunlarından biridir. Bu səbəbdən Gürcüstan enerji təhlükəsizliyi məsələsində həm region ölkələri, həm də Qərb üçün mühüm tərəfdaş rolunu oynayır. Bundan başqa, onun tranzit ölkə kimi gəlirləri də hər il artır. Məsələn, neft - qaz sahəsində əməkdaşlıq artıq real nəticələr verir. Bu ilin ilk 5 ayında Gürcüstana 1,6 milyard kubmetr qaz tədarükü təmin olunub.




Qazaxıstan isə Xəzərin şərqində yerləşən enerji nəhəngi kimi Avropa bazarlarına çıxışını diversifikasiya etmək məqsədilə alternativ nəqliyyat və ixrac marşrutları axtarır. Rusiya–Ukrayna münaqişəsi və Qərbin enerji siyasətindəki dəyişikliklər Qazaxıstanı öz ixrac yollarını şaxələndirməyə sövq edir. Bu baxımdan, Azərbaycanın müasir nəqliyyat-logistika infrastrukturu, xüsusilə də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı–Tbilisi–Qars dəmir yolu Qazaxıstan üçün strateji əhəmiyyət daşıyır. Qazaxıstan neftinin Bakı vasitəsilə Ceyhan limanına və oradan dünya bazarlarına çıxarılması istiqamətində artan əməkdaşlıq bu tendensiyanın bariz nümunəsidir. Onu da qeyd edək ki, Qazaxıstan Aktau–Bakı–Ceyhan marşrutu üzrə neft tranzitini 2025-ci ildə 1,7 milyon tona çatdırmağı planlaşdırır.

Ənənəvi neft və qaz ixracı ilə yanaşı, son illər yaşıl enerji – külək, günəş və hidroenerji sahələrində irəliləyişlər bu əməkdaşlığın yeni mərhələyə keçdiyini göstərir. Bu kontekstdə "Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi xüsusi önəm daşıyır. Azərbaycanın zəngin yaşıl enerji potensialı Gürcüstan üzərindən Qara dəniz vasitəsilə Avropa bazarlarına ötürüləcək. Bu marşrut həm enerji mənbələrinin diversifikasiyası, həm də qlobal iqlim çağırışlarına cavab baxımından mühüm alternativ kimi çıxış edir.

Azərbaycanın Energetika naziri Pərviz Şahbazovla Mariam Kvrivişvilinin görüşündə bu məqam xüsusi vurğulanıb. Bildirilib ki, yaşıl enerji dəhlizi çərçivəsində planlaşdırılan sualtı kabel layihəsi, həmçinin Azərbaycan–Gürcüstan–Türkiyə–Bolqarıstan interkonnektor layihəsi Cənubi Qafqaz regionunu Avropa enerji sisteminə inteqrasiya edən mühüm infrastruktura çevrilə bilər. Bu təşəbbüslər həm də regionda bərpa olunan enerji mənbələrinin effektiv istifadəsini təşviq edir və yeni investisiya imkanları yaradır.

Qazaxıstanın da bu dəhlizdəki rolu nəzərəçarpandır. Xəzər dənizi vasitəsilə enerji bağlantıları genişləndikcə, Qazaxıstan özünün yaşıl enerji ambisiyalarını bu regional əməkdaşlıq kontekstində reallaşdırmaq imkanı əldə edir. Nəticə etibarilə, bu üç ölkə arasında enerji sahəsindəki əməkdaşlıq təkcə iqtisadi maraqlara deyil, həm də qarşılıqlı etimada və uzunmüddətli strateji planlara əsaslanır. Həm də Avropanın enerji şaxələndirmə siyasətinə töhfə verir, Orta Dəhlizin geosiyasi əhəmiyyətini artırır.

Bu dəyişikliklər kontekstində Azərbaycanın təşəbbüsü ilə gündəmə gələn "Zəngəzur dəhlizi" layihəsi xüsusi əhəmiyyət kəsb edir. Dəhliz Çindən Avropaya qədər uzanan yeni ticarət yollarının daha təhlükəsiz və çevik marşrutlar üzrə qurulmasına şərait yaradır. Cənubi Qafqaz və Mərkəzi Asiya regionları bir-birinə daha sıx şəkildə, vahid iqtisadi və nəqliyyat sisteminin elementlərinə çevrilirlər.

Nəticə etibarilə, Bakı–Tbilisi–Astana strateji tandemi Orta Dəhliz başda olmaqla bir sıra nəqliyyat və enerji layihələrinin uğurla həyata keçirilməsində mühüm rol oynayır. Bu əməkdaşlıq modeli təkcə regionun inkişafına deyil, həm də Avropa və Asiya arasında dayanıqlı, səmərəli və təhlükəsiz iqtisadi əlaqələrin qurulmasına ciddi töhfələr verir. Yaxın gələcəkdə bu əməkdaşlıq modelinin daha geniş coğrafiyanı əhatə edəcəyi və regionun qlobal iqtisadi sistemə sıx inteqrasiyası real görünür.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Siyasi korlar – gerçəyə xor baxanlar

## *Zurabyanların "geosiyasi fobiya"ları bitmək bilmir*

**Ermənistanda özünü siyasi ekspert, ictimai-siyasi xadim adlandıran şəxslərin Zəngəzur dəhlizi mövzusunda fantaziyaları bitib-tükənmək bilmir. Sanki onlar reallıqdan uzaq, siyasi populizmə əsaslanan yanaşmalarla gündəmdə qalmağa çalışırlar. Onlar haray-həşir salaraq Zəngəzur dəhlizi kimi hamı üçün faydalı qlobal layihəni gözdən salmağa cəhd edirlər. Əlbəttə, məsələnin mahiyyətini təhrif edən bu yanaşmalar daxili auditoriyaya, necə deyərlər, bulanıq suda balıq tutmağa hesablanıb və manipulyativ məqsədlər daşıyır. Çünki həmin fikirləri səsləndirənlər özləri də dəhlizin açılmasının bölgədə iqtisadi canlanma və sabitlik üçün real fürsət olduğunun fərqindədirlər. Lakin onlar inaddan əl çəkməyərək bu fürsəti təhdid kimi təqdim etməyə davam edirlər. Belələrindən biri də müxalifətdə olan Erməni Milli Konqresi partiyası sədrinin müavini Levon Zurabyandır.**




Həmin bu Zurabyan bir neçə gün öncə "Facebook" hesabında Zəngəzur dəhlizi ilə bağlı həqiqətə uyğun olmayan fikirləri paylaşım edib. Bildirib ki, Zəngəzur dəhlizi, birincisi, Azərbaycanın proqramıdır. Guya, Azərbaycan ölkənin qərb rayonları ilə Naxçıvan arasında, daha sonra Türkiyə ilə əlaqə yaratmaqla kifayətlənmək istəmir və Zəngəzuru öz nəzarətinə götürməyə çalışır. İkincisi isə bu, Türkiyə ilə türk dünyası arasında kommunikasiya və iqtisadi əməkdaşlıq oxunun yaradılmasına töhfə verən "Turan proqramı"dır: "Bəs bu necə geosiyasi proqrama çevrilir? Bir tərəfdən Rusiya, Çin və İran, digər tərəfdən isə Qərb üçün bu layihəyə kimin nəzarət edəcəyi çox önəmlidir. 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanatın imzalanması Rusiyanın vəziyyəti nəzarətə götürmək cəhdi idi. Amma təbii ki, Qərb bununla barışa bilməzdi və Qarabağı itirmək (?) bahasına olsa belə, Paşinyanı bu plandan əl çəkməyə məcbur etdi. Və gələcəkdə bu proqram Qərbin təsirinə tabe olmalıdır, hətta bunun bədəli Ermənistanın suverenliyinin məhv edilməsi və tədricən azərbaycanlılaşdırılması hesabına olsa belə... Başa düşmək lazımdır ki, Zəngəzur bizim əlimizdə "kozır"ımız, sərvətimizdir, hazırda onun uğrunda geosiyasi mübarizə aparılır".

Sözsüz ki, fürsətdən yararlanan Zurabyan hazırkı iqtidarın, necə deyərlər, bostanına daş atmağı da unutmayıb. Deyib ki, belə bir "kozıra" sahib olmaqla çətin situasiyaya düşüblər. Çünki bu geosiyasi rəqabətdə qalib gəlmək son dərəcə ağıllı diplomatiya tələb edir: "Əsas vəzifə "kozır"dan düzgün istifadə etməkdir. Əks halda o, sizdən alınacaq və hissələrə bölünəcək. Əgər Ermənistanda balanslaşdırılmış diplomatiya aparan, geosiyasi oyunçuların maraqlarını uzlaşdıra bilən normal hakimiyyət olsaydı, bizdə tamam başqa vəziyyət olardı. Belə bir geosiyasi maraq şəraitində Zəngəzur (Zurabyan da digər haylar kimi təbii ki, "Sünik" məfhumundan istifadə edir–S.H.) Şimaldan Cənuba, Şərqdən Qərbə dəmir yollarının kəsişəcəyi nəqliyyat qovşağına çevrilməlidir. Bu yolla konsorsium yaratmaq və müxtəlif dövlətlərin maraqlarını uyğunlaşdırmaqla Ermənistanı ölümcül geosiyasi mübarizədən çıxarmaq olar. Belə bir həllə ən mürəkkəb diplomatiya yolu ilə nail olmaq lazımdır".

*

Qeyd edək ki, L.Zurabyan Ermənistanın ictimai-siyasi mühitində uzun illərdir fəaliyyət göstərən, lakin daha çox radikal çıxışları və populist ritorikası ilə yadda qalan şəxslərdəndir. O, özünü ictimai-siyasi xadim, siyasi ekspert və müstəqil analitik kimi təqdim etsə də, əslində, onun fəaliyyəti əsasən siyasi spekulyasiyalar, konspiroloji nəzəriyyələr üzərində qurulub. Onun imzasını tez-tez müxtəlif sosial şəbəkələrdə, xüsusilə də "Facebook"da regional layihələr, sərhəd mübahisələri və Ermənistanın daxili siyasi prosesləri ilə bağlı sərt və emosional paylaşımlarda görmək mümkündür. Zurabyanın ən çox müzakirə olunan mövqelərindən biri də Zəngəzur dəhlizi məsələsində ortaya qoyduğu yanlış yanaşmadır. O, bu layihəni regional nəqliyyat infrastrukturu kimi deyil, "Ermənistanın azərbaycanlılaşdırılması", "suverenliyin itirilməsi" və "türk dünyasının genişlənməsi" kimi təqdim edir. Beləliklə, o, ictimai fikirdə süni ajiotaj yaratmağa, qonşuluq və əməkdaşlıq imkanlarını düşmənçilik və geosiyasi qarşıdurma prizmasında göstərməyə çalışır. Zurabyan bu ritorikası ilə reallıqdan uzaq olduğunu dəfələrlə sübuta yetirib. Onun çıxışları Ermənistan cəmiyyətində bölücülük və çaşqınlıq yaratmaqdan başqa nəticə verməyib.

*

L.Zurabyan və onun kimi düşünən dairələr əslində, Ermənistanın regional təcridini daha da dərinləşdirirlər. Onlar Zəngəzur dəhlizi kimi, qlobal əhəmiyyətli layihələri şüurlu şəkildə təhrif edir, bunu qeyd etdiyimiz kimi, Ermənistana qarşı yönəlmiş təhlükə, "işğal planı" və ya suverenliyin itkisi kimi sırıyırlar. Zurabyanın haqqında söhbət açdığımız "Facebook" paylaşımı da bu cəfəng yanaşmanın bariz nümunəsidir. O, Azərbaycanın Zəngəzur dəhlizini sadəcə bir kommunikasiya xətti kimi deyil, ərazi nəzarəti vasitəsi kimi istifadə etmək istədiyini iddia edir. Eyni zamanda, bu layihəni "Turan proqramı" çərçivəsində türk dünyasının geosiyasi alətinə çevrilməsi ilə bağlayır. Bu iddialar həqiqətdən uzaq olmaqla yanaşı, bölgədə əməkdaşlıq və inteqrasiya perspektivlərinə zərbə vurmağa yönəlib.

Hər şeydən öncə vurğulamaq lazımdır ki, Zəngəzur dəhlizinin açılması 2020-ci ilin 10 noyabr tarixli üçtərəfli bəyanatda birbaşa nəzərdə tutulub, həmin sənədin tərkib hissəsidir və orada Ermənistan baş nazirinin imzası var. Hamıya məlumdur ki, sənədə əsasən, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqənin yaradılması nəzərdə tutulur. Azərbaycan bu layihəni nə hərbi, nə də ekspansionist vasitə kimi təqdim edir. Əksinə, regionda iqtisadi əməkdaşlığın inkişafı və nəqliyyat əlaqələrinin bərpası üçün mühüm addım sayır. Dəhlizin açılması yalnız Azərbaycana deyil, Ermənistana da mühüm iqtisadi dividendlər vəd edir. Bu səbəbdən Zurabyanın "Zəngəzurun azərbaycanlılaşdırılması" və ya "Ermənistanın suverenliyinin məhv edilməsi" kimi ifadələri sırf emosional, manipulyativ ritorikadır və obyektiv reallıqla heç bir əlaqəsi yoxdur.

Eyni zamanda, "Turan proqramı" kimi mifoloji və ideoloji çərçivələrə söykənən yanaşmalarla Zəngəzur dəhlizini şərh etmək regionda reallaşmaqda olan konkret iqtisadi layihəni süni şəkildə təhlükə kimi göstərmək deməkdir. Bu cür fikirlər Qərbin, Rusiyanın və ya İranın da maraqlarına toxunduğu üçün, guya, Ermənistanın bu layihədən uzaqlaşmağa məcbur edildiyi kimi iddialar səsləndirilir. Halbuki Ermənistanın özündə dəfələrlə rəsmi şəxslər dəhlizin açılmasının bölgəyə fayda verəcəyini bildiriblər. Problem ondan ibarətdir ki, Zurabyan kimilər bu məsələyə özlərinin siyasi ambisiyaları və tarixi kompleksləri prizmasından yanaşaraq, yeni regional reallıqlarla barışmaq istəmirlər.

Əslində, bu cür ritorika erməni cəmiyyətində qorxu və çaşqınlıq yaratmağa xidmət edir. Halbuki bu gün Ermənistanın qarşısında duran əsas vəzifə Azərbaycan və Türkiyə kimi qonşuları ilə normal münasibətlər qurmaq, iqtisadi blokadadan çıxmaq və sabit regional inteqrasiyaya töhfə vermək olmalıdır. Zəngəzur dəhlizinə geosiyasi "kozır" kimi deyil, regional sabitliyin açarı kimi baxmaq daha məqsədəuyğundur. Əks halda, Ermənistan yenə də keçmişdə olduğu kimi, fürsətləri əldən verəcək və özünü təcrid olunmuş vəziyyətdə saxlayacaq.

***Səxavət HƏMİD***
***XQ***

**EKSPERT RƏYİ**



**İlyas HESEYNOV,**
**politoloq**

– Zurabyanın Zəngəzur dəhlizi barədə səsləndirdiyi fikirlər, əslində, Ermənistan daxilində hələ də formalaşmamış strateji baxışın təzahürüdür. Onun çıxışları göstərir ki, bu cür şəxslər regionda baş verən geosiyasi dəyişiklikləri dərk etmək və onlara uyğun mövqe tutmaq əvəzinə, köhnə qorxu və miflər üzərindən danışmağa üstünlük verirlər. Zurabyan məsələni iqtisadi və nəqliyyat baxımından deyil, sırf ideoloji və təhlükəsizlik müstəvisində şərh edərək, ictimai fikri çaşdırmağa çalışır. O, bu dəhlizi Azərbaycanın Ermənistan üzərində hegemonluq iddiası kimi təqdim edir ki, bu da nə real faktlara əsaslanır, nə də beynəlxalq hüquqa uyğundur.

Reallıq isə ondan ibarətdir ki, Zəngəzur dəhlizi Ermənistanın blokadadan çıxması regionun nəqliyyat xəritəsində mühüm mərkəzə çevrilməsi üçün nadir imkandır. Zurabyan kimi şəxslər isə bu fürsəti siyasi isteriyaya çevirərək ölkənin öz maraqlarına zidd mövqe formalaşdırırlar. Bu cür çıxışlar Ermənistanı sabitlik və əməkdaşlıq kursundan uzaqlaşdırmaqla yanaşı, daxildə də radikal qütbləşməni dərinləşdirir. Təsəvvür edin, bölgədə yeni yollar çəkilir, yük axınları artır, ticari əlaqələr genişlənir, amma Ermənistan hələ də "ərazi itkisi", "suverenliyin təhlükəyə düşməsi" kimi anlayışlarla prosesə yaxınlaşır. Bu düşüncə tərzi XXI əsrin çağırışlarına deyil, keçmişin kölgəsinə xidmət edir.

Zurabyanın və onun kimi düşünənlərin əsas problemi ondan ibarətdir ki, onlar Ermənistanın gələcəyini təhlükə və münaqişə ilə formalaşdırmağa çalışır. Halbuki ölkənin sabitliyi məhz regional inteqrasiyadan keçir. Zəngəzur dəhlizi Ermənistan üçün həm tranzit gəlirləri, həm də siyasi sabitlik deməkdir. Əgər bu cür imkanlar radikal ritorikalarla itib-batarsa, Ermənistan yenidən iqtisadi uğursuzluğa məhkum olacaq. Zurabyan kimilərinin yanaşmaları Ermənistan cəmiyyətində qorxu, şübhə toxumu səpməyə və ölkəni təcriddə saxlamağa xidmət edir.

## Konstitusiya və Suverenlik ili

# Azərbaycanın hüquqi və dövlətçilik inkişafı

**Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır. Bu qərar Azərbaycanın dövlətçilik tarixində mühüm əhəmiyyətə malik olan iki əsas hadisə - Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və dövlət müstəqilliyinin bərpasının 34-cü ildönümü ilə bağlıdır.**

Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmişdir. Bu, ölkənin ilk müstəqil Konstitusiyası olmaqla, onun demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşmasını təmin edən əsas qanundur. Azərbaycan Respublikasının Konstitusiyası – dövlətin əsas qanunu olaraq – hüquqi sistemin təməlini təşkil edir. Belə ki, Konstitusiyada qanunun aliliyi, insan və vətəndaş hüquq və azadlıqları, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü kimi əsas prinsipləri təsbit edilir. Bu sənəd ölkədə hüquq sisteminin təməlini qoymuş və Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun inkişafını təmin etmişdir. "Konstitusiya və Suverenlik ili" Azərbaycan dövlətçiliyinin əsaslarını möhkəmləndirmək, hüquqi sistemin daha da təkmilləşdirilməsi və ölkənin müstəqillik yolunda qazandığı uğurları vurğulamaq məqsədini daşıyır.



Konstitusiyanın hüquq sistemində ali hüquqi qüvvəyə malik olması, onun digər normativ hüquqi aktlar üzərində üstünlüyünü təmin edir. Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsinə əsasən, qanunvericilik və icra hakimiyyəti orqanlarının qəbul etdiyi bütün normativ hüquqi aktlar Konstitusiyaya uyğun olmalıdır. Bu prinsip hüquqi sabitliyin və normativ sistemin daxili harmoniyasının əsas təminatıdır. Konstitusiya yalnız hüquqi çərçivə yaratmaqla kifayətlənmir, o, həm də normativ legitimlik və qanunvericilik iyerarxiyasının müəyyənləşdirilməsi funksiyasını yerinə yetirir. Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarını tanımaqla kifayətlənmir, eyni zamanda onların təminat sistemini də müəyyənləşdirir. Konstitusiyanın III fəsli bu hüquq və azadlıqların geniş aspektini ehtiva edir. Onların reallaşdırılması üçün Konstitusiya hüquqi müstəvidə dövlətin pozitiv öhdəliklərini müəyyən edir. Bu da onu göstərir ki, Konstitusiya yalnız nomativ çərçivə deyil, həm də hüquqi müdafiənin fəal vasitəsi olmaqla, eyni zamanda, beynəlxalq hüquq normalarının milli hüquq sisteminə inteqrasiyasını təmin edən vasitə kimi çıxış edir. Bu, Azərbaycanın hüquqi sistemində insan hüquqlarının universal və regional standartlara uzlaşdırılmasına şərait yaradır. Ümummilli lider Heydər Əliyev öz çıxışında qeyd etmişdir ki, Konstitusiya dövlətlə, hakimiyyətlə, xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir.

Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük tarixi nailiyyətlərindən biridir. 18 oktyabr 1991-ci ildə qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" ilə Azərbaycan öz suverenliyini bərpa etdi. Bu müstəqillik xalqın iradəsinə, milli kimliyinə və tarixi ədalətə əsaslanır.

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirilmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparmış, insanlıq əleyhinə cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur. 2023-cü il sentyabrın 19-da Ermənistan qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlamışdır. Bu antiterror əməliyyatı cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir.

Bu gün Azərbaycan regional və qlobal səviyyədə söz sahibi olan bir dövlətdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə edilən zəfər "dəmir yumruğa" çevrildi. Həmin tarixi qələbə müstəqilliyimizin möhkəm əsaslara söykəndiyini bir daha sübut etdi. Dövlətimizin güclü ordusu, müstəqil siyasəti və xalqının birliyi Azərbaycanın suverenliyinin dönməz olduğunu təsdiqləyir.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: "Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz var gücümüzlə müstəqilliyimizi qoruyuruq və qoruyacağıq". Azərbaycanın müstəqilliyi əbədidir, çünki onun arxasında xalqın iradəsi, qanı, canı bahasına qorunan torpaqlar və güclü dövlətçilik ənənəsi dayanır.

19 sentyabr 2024-cü il tarixində Prezident İlham Əliyev "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalamaqla hər il sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi qeyd ediləcəkdir. Bu addımla Azərbaycanın müasir tarixində daha bir şərəfli günün qeyd olunmasına səbəb olmuşdur. Suverenlik dövlətin daxili və xarici işlərdə müstəqilliyini və tam səlahiyyətə malik olmasını təmin edən fundamental prinsipdir. Azərbaycan xalqının tarixi mübarizəsi nəticəsində suverenliyi bərpa edərək müstəqil dövlət qurulmuşdur. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Konstitusiya bu suverenliyi möhkəmləndirmiş və hüquqi əsaslar yaratmışdır. 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan olunması Azərbaycan dövlətçiliyinin əsaslarını daha dərindən dərk etmək və gələcək nəsillərə ötürmək üçün əhəmiyyətli bir addımdır. Bu il ərzində dövlət suverenliyinin qorunması və inkişaf strategiyasının hazırlanması, Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin əhəmiyyətini vurğulayan maarifləndirmə tədbirləri təşkil ediləcəkdir. Bu il təkcə tarixi hadisələrin qeyd olunması üçün deyil, eyni zamanda, Azərbaycanın hüquqi və dövlətçilik inkişafının daha da gücləndirilməsi üçün bir fürsətdir.

Konstitusiya hər bir müasir dövlətin hüquqi strukturunda normativ nüvəni təşkil edir. Azərbaycanın dövlət quruculuğu prosesində Konstitusiya yalnız hüquqi sənəd deyil, həm də siyasi legitimliyin, hüquqi sabitliyin və milli suverenliyin əsas sütunu kimi çıxış edir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində bu sənədin hüquqi, siyasi və sosial aspektlərinin yenidən dəyərləndirilməsi, konstitusional düşüncənin dərinləşdirilməsi baxımından mühüm imkanlar yaradır. Bu baxımdan, Konstitusiyanın elmi tədqiqi və tətbiqinin təkmilləşdirilməsi hüquqi dövlətin davamlı inkişafına xidmət edən əsas şərtlərdən biri kimi çıxış edir.

2024-cü ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi ölkənin hüquqi əsaslarının, milli dövlətçiliyin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində mühüm mərhələ oldu. Bu il Konstitusiyanın dövlət idarəçiliyindəki rolunun daha dərindən təhlil olunması və ictimai şüurda onun yerinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyyət daşıyır.

Konstitusiya və suverenlik Azərbaycan dövlətinin dayaqlarıdır və bu dəyərlərin qorunması ölkənin gələcək inkişafı üçün mühüm rol oynayır. Hər bir vətəndaş konstitusiyanı öyrənməli, onun prinsiplərinə hörmət etməli və dövlətin suverenliyini qorumaq üçün çalışmalıdır. "Konstitusiya və Suverenlik ili" bu dəyərlərin daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə mühüm tövfə verəcəkdir.

***Taleh OSMANOV,***
***Xocavənd rayon prokuroru,***
***baş ədliyyə müşaviri***

# Şamaxıda COP29-dan COP30-a körpü




**İyulun 23-24-də Azərbaycanın təşkilatçılığı və ev sahibliyi ilə, eləcə də COP30 sədri kimi Braziliya ilə əməkdaşlıq çərçivəsində Şamaxıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) danışıqlar qruplarının sədrləri, eləcə də UNFCCC-yə tərəf olan bəzi dövlətlərin nümayəndə heyətlərinin rəhbərlərinin ikinci qeyri-rəsmi Şamaxı toplantısı keçirilib.**



Məclisdə 34 ölkə və UNFCCC Katibliyindən 70-dən çox nümayəndə iştirak edib. Dövlətlər nazir, nazir müavini, prezidentlərin iqlim üzrə elçiləri, UNFCCC danışıqlar qruplarının və tərəf dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri və digər yüksəksəviyyəli formatlarda təmsil olunub.

Keçən ilin iyul ayında eyni formatda keçirilmiş birinci Şamaxı toplantısının COP29-un qərarlarının qəbuluna verdiyi mühüm töhfə diqqətə alınaraq, eyni formatın cari ildə də davam etdirilməsinə qərar verilib. Builki Şamaxı toplantısının mövzusu da keçən il olduğu kimi iqlim danışıqlarının gündəliyində olan əsas istiqamətlərə və Azərbaycanla Braziliyaya COP29-da verilmiş birgə mandata uyğun olaraq iqlim maliyyəsinin 1,3 trilyon ABŞ dollarına qaldırılması ilə bağlı "Bakıdan Beleмə 1,3 Trilyon Yol Xəritəsi" sənədinin hazırlanmasına fokuslanıb.

Toplantının açılış mərasimində COP29-un Prezidenti, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev, xarici işlər nazirinin müavini və COP29-un baş danışıqçısı Yalçın Rəfiyev və COP30-un baş danışıqçısı səfir Liliam Çaqas çıxış ediblər.

***XQ***

**Xuntaçıların məhkəməsi**

# Soydaşlarımız erməni hərbçiləri vəhşi əməllərə görə ittiham ediblər





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, kimi çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 25-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında zərərçəkmiş şəxs İlqar Əhmədov ifadəsində 2022-ci ildə Cəbrayıl rayonunun Mehdili kəndində minaya düşərək xəsarət aldığını bildirib. Mürsəl Oruclu ifadəsində 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı Haramı düzündə yaralandığını deyib.

Zahir Zeynalov ifadəsində 2016-cı il aprelin 2-də hərbçi kimi xidmətdə olarkən Goranboyun Tapqaraqoyunlu kəndində Ermənistan silahlı qüvvələrinin atdığı mərminin partlaması nəticəsində xəsarət aldığını söyləyib. Yaqub Məmmədov ifadəsində 1993-cü il martın 23-də Zəngilan şəhərində elektrik xətlərini düzəldən zaman Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində yaralandığını bildirib.

Niyazi Abbasov ifadəsində 2016-cı ildə Aprel döyüşləri zamanı qarşı tərəfdən atılmış mərminin partlaması nəticəsində müxtəlif bədən xəsarətləri aldığını söyləyib. Zərərçəkmiş Ələddin Xəlilovun hüquqi varisi Əlizaman Xəlilov ifadəsində oğlunun 44 günlük Vətən müharibəsi zamanı oktyabr ayında Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində şəhid olduğunu bildirib.

David Məmmədov 2020-ci il iyulun 12-də Tovuzda Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində müxtəlif bədən xəsarətləri aldığını söyləyib. Vüqar Əfəndiyev 1991-ci il noyabrın 23-də Qazax rayonunda hərbi xidmətdə olarkən əsir götürülərək Ermənistanın İcevan rayonuna aparıldığını bildirib.

Şamil Abdullayev bildirib ki, 1992-ci ilin iyul ayında Ağdərədə əsir götürülüb, 1993-cü ilin noyabr ayında azad olunub. Əsirlikdə olduğu vaxt işgəncələrə məruz qalıb və döyülüb. Elvin Əkbərov ifadəsində 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi zamanı oktyabrın 6-da Cəbrayıl rayonunda qəlpə yaraları aldığını bildirib.

Zərərçəkmiş şəxs Vəliəhəd Vəliyev bildirib ki, 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi zamanı oktyabrın 22-də Zəngilanda güllə və qəlpə yaraları alaraq Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb. O, həmin vaxt hərbçi yoldaşlarının şəhid olduğunu söyləyib. Rövşən Hüseynov ifadəsində 1998-ci il iyunun 21-də Gədəbəy rayonunda hərbi xidmətdə olarkən Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib.

Nahid Zeynalov, Rəşmi Hümmətov, Ariz Qəhrəmanov, Əfqan Kamilov, Yunis Abdıyev, Fərhad Tağıyev, Sübhan Əlirzayev, Samir Əliyev, Hicran Sultanov, Həsən Qurbanov 2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusunun keçirdiyi antiterror əməliyyatı zamanı Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində yaralandıqlarını qeyd ediblər.

Nəriman İbrahimov 2022-ci ildə Kəlbəcərdə, Nurlan Musayev 2022-ci ildə Laçında Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində yaralandığını bildirib. Dövran Dadaşov, Tərlan Mahmudov və Anar Mahmudov ifadələrində 2020-ci ildə Vətən müharibəsində döyüşlər zamanı yaralandıqlarını bildiriblər.

Şirvan Məmmədov 1992-ci il mayın 14-də Zəngilanın Vejnəli kəndində girov götürüldüyünü bildirib. Rauf Qafarov ifadəsində 1994-cü ilin aprel ayında Füzuli rayonunda əsir götürüldüyünü, 1996-cı il mayın 10-da Azərbaycan tərəfə təhvil verildiyini bildirib. Döyülüb, işgəncələrə məruz qalıb. Ramiz Musayev ifadəsində 1992-ci il mayın 18-də Laçın rayonunda girov götürüldüyünü, işgəncələrə məruz qaldığını, ayrı-ayrı əzalarının siqaretlərlə yandırıldığını söyləyib.

Ələkbər Ələkbərov ifadəsində bildirib ki, 1993-cü il avqustun 27-də Qubadlıda girov götürülərək Ermənistana aparılıb. Əsirlikdə olduğu vaxt daim döyülüb, qeyri-qanuni şəkildə əməyə cəlb olunub. Abuzər Mənafov bildirib ki, 1994-cü il yanvarın 9-da Füzulinin Kürdmahmudlu kəndində yaralanıb və əsir götürülüb. Döyülüb, işgəncələrə məruz qalıb, işgəncə məqsədilə barmağı kəsilib.

Ayrı-ayrı vaxtlarda Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülmüş Əbdüləzim Məmmədov (65 gün), Adil Dəmirov (9 ay), Mehman Mirzəyev (2 il), Arif Əlləzov (4 ay), Afər Mustafayev (1 il 4 ay) ifadələrində işgəncələrə məruz qaldıqlarını, döyüldüklərini bildiriblər. Digər zərərçəkmişlər - Rövşən Salahov, Ələmşah Həsənov, Zöhrab Heydərov da ayrı-ayrı tarixlərdə əsirlikdə olub.

Vaqif Zülfüqarov Füzuli, Nazim Seyidov və Anar Səfərov Ağdam, Baxşeyiş Ağayev və Ədalət Ağalarov Laçın rayonundan məcburi köçkün düşdüklərini, mülklərinin həmin vaxt Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən ərazilərdə qaldıqlarını bildiriblər. Laçının Oğuldərə kəndindən olan B.Ağayev bildirib ki, rayon işğal olunan zamanı qohumu, 80 yaşlı Pəri İlyasova yolda donaraq ölüb, daha bir neçə doğması isə indiyədək itkindir.

Məhkəmə prosesi iyulun 28-də davam etdiriləcək.

***XQ***

# Lider–dövlət–xalq



I MƏQALƏ

## III Şuşa Qlobal Media Forumu

İşğaldan azad edilmiş Qarabağın Azərbaycanın sosial, siyasi, informasiya, iqtisadi, energetik və digər sferalarına sürətli inteqrasiyası davam edir. Mütəmadi olaraq keçirilən beynəlxalq miqyaslı tədbirlər Vətən müharibəsinin cari və strateji mənasını bir daha dünyaya anladır. Dünyanın müxtəlif dövlətlərinin siyasi liderləri, diplomatları, iş adamları, media nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə müstəqil və güclü Azərbaycanın real obrazı xaricilər üçün getdikcə daha da aydınlaşır.

Bu prosesdə medianın rolu, şübhəsiz, əvəzedilməzdir. Müasir fərdi və kollektiv həyatın elə bir sferası yoxdur ki, bu və ya digər dərəcədə KİV-in informasiya "materialı"na çevrilməsin. Filosoflar, sosioloqlar, kulturoloqlar medianı müxtəlif aspektlərdə məhz bu özəlliyinə görə aktiv surətdə təhlil edirlər. Alman sosioloqu Niklas Luman XX əsrin 70-80-ci illərində yaratmağa başladığı sosiologiyasında medianın cəmiyyət hadisəsi kimi araşdırılmasına böyük yer vermişdir. Ümumiyyətlə, müasir mərhələdə medianı kommunikasiya vasitələri kontekstində geniş tədqiq edirlər.

Bu elmi reaksiya təsadüfi deyildir. Hətta Marşal Maklüyenə görə, elektron media müasir mədəniyyət növünü formalaşdırır. Bu baxımdan III Şuşa Qlobal Media Forumunun rəqəmsal keçidlər və süni intellekt mövzusuna həsr edilməsi ritorika deyildir: ciddi sosial, siyasi, mədəni, kommunikativ və proqnostik mənası olan məsələdir.

Bundan başqa, Qarabağın incisi olan Şuşada rəqəmsallıq və süni intellekt məsələlərinin informasiya və media dayanıqlılığının gücləndirilməsi kontekstində müzakirə mövzusuna çevrilməsi ayrıca təhlili və proqnostik anlama malikdir. Məsələnin nəzəri tərəfi, ümumiyyətlə, "informasiya və media hansı anlamda dayanıqlı ola bilər?" sualına cavab axtarışları ilə bağlıdırsa, praktiki kontekst də çox mühümdür. Burada, görünür medianın "dayanıqlılığı" istənilən situasiyada ədalətə, obyektivliyə, jurnalist etikasına sadiqliyini ifadə etməlidir.

Bizə görə, jurnalist fəaliyyətinin və media kimi strukturlaşmanın əsas əlaməti müasir mərhələdə bundan ibarət olmalıdır. Çünki indiki mərhələdə siyasilər və müəyyən maliyyə dairələri mediaya elə dərin və geniş təsir edirlər ki, bir sıra hallarda jurnalist nəinki həqiqəti, heç posthəqiqəti belə adekvat çatdıra bilmir.

Müxtəlif siyasi dairələr, mafioz qruplar, transmilli şirkətlər, hətta separatçı-terrorçu qruplaşmalar öz maraqlarına uyğun müəyyən informasiya "yuvaları" yarada bilirlər. Buna görədir ki, dünyanın hər bir ölkəsində "5-ci" və sair "kolonlardan" danışılır və onlarla mübarizə dövləti və milli mücadilənin təməl prinsiplərindən biri kimi qiymətləndirilir. İnformasiyanın cəmiyyətdəki rolu baxımından bu məsələnin üç mühüm aspekti mövcuddur.

### İnformasiyanın cəmiyyətdə rolu

Bu problemin təməlində "hansı səbəblərdən müasir insan üçün informasiya yüksək dərəcədə əhəmiyyətli olmuşdur?" sualına cavab axtarışı dayanır. Doğrudan da, bütövlükdə insan cəmiyyəti yaranandan məlumat alış-verişi həmişə olmuşdur. Lakin heç zaman total miqyasda informasiyaya bu dərəcədə həssaslıq olmamışdır. Demək olar ki, müasir insanı fərd və kollektiv olaraq informasiya idarə edir. İnformasiya ilə bütöv cəmiyyəti, cəmiyyətlər qrupunu, mədəniyyətlər sistemini və hətta sivilizasiyanın memlərini (dəyişməz kodlarını) dəyişə bilirlər. Tədqiqatçılar boş yerə bu dəyişiklikləri mədəniyyətin və sivilizasiyanın təhlükəsizliyi kontekstində araşdırmırlar.

Deməli, hər bir fərdin informasiyaya həssaslığı şəxsi seçimi deyildir – müasir həyatın zərurətidir. Onun da səbəbi vardır. Məsələ ondan ibarətdir ki, müasir sosial həyat elə qurulmuşdur ki, informasiya haqqında olduğu sferanın substantiv və kommunikativ aspektlərinin sintezini ifadə edir. Yəni informasiya özündə həm predmetin (obyektin, qaynağın) mahiyyətini daşıyır, həm də onun təsir dairəsini (sosial, siyasi, mədəni, mənəvi, təhlükəsizlik və s.) müəyyən edir. Buna görə də fərd qəbul etdiyi informasiyanı yalnız başqalarına aid olan məlumat kimi deyil, birbaşa özünün cəmiyyətdə (geniş anlamda həyatda) tutmalı olduğu yeri və oynamalı olduğu rolu müəyyən edən kod kimi dərk edir.

### İdarəetmə, media və informasiya

Yuxarıda vurğulanan özəlliklər avtomatik olaraq həm ayrıca informasiyanın, həm də onun toplanması, yayılması və saxlanmasının xüsusi strukturlaşmış forması olan media qurumlarının cəmiyyətin və dövlətin həyatında rolunu yeniləşdirir. Dövləti idarəetmə faktiki olaraq mediativ və bütövlükdə informasion xarakter alır. Müasir müstəqil dövlətlərin hər birində idarəetmənin nəticəverici olmasında media qurumları və informasiyaların xüsusi yeri vardır. Bu yeri adekvat dərk edən və ondan səmərəli yararlanan dövlət uğurlu ola bilir. Media dayanıqlılığı həm də bu baxımdan çox vacib sosial və kommunikasiya məsələsidir. Onun Xankəndidə müzakirə edilməsi, əlbəttə, əhəmiyyətli məsələdir.

Bütün bu məqamların fonunda Prezident İlham Əliyevin Şuşa media forumlarında aktiv iştirak və fikirlərini geniş izah etməsi dövlətçilik kontekstində vacib hadisədir. İlham Əliyev verilən suallara siyasi-nəzəri və praktiki fəaliyyətin sintezində dəqiq və əsaslı cavab verir. Həmin cavablar Azərbaycan mediasının dayanıqlı olması və həyata keçirilən siyasətin incəliyinə qədər obyektiv jurnalist mövqeyindən təqdim edilməsi aspektində aktual mesajlardır. Onların konkret təhlilinə keçmədən öncə, Azərbaycanın informasiya məkanında müşahidə etdiyimiz bir sıra mühüm məqamlar üzərində dayanaq.

### İnformasiya axınları kəsişməsində

Müşahidələr göstərir ki, həm Azərbaycan, həm də dünya mediasında Azərbaycan mövzusuna müraciət dəfələrlə artmışdır. Xarici media orqanları əsasən Vətən müharibəsindən sonra Azərbaycanda və Cənubi Qafqazda baş verən geosiyasi, siyasi, ideoloji, əməkdaşlıq və təhlükəsizlik istiqamətlərində özünü göstərən proseslərə diqqət daha çox ayırırlar. Maraqlı və əhəmiyyətlidir ki, hansı mövqedən yazılmasından asılı olmayaraq, dünya KİV-i bir məqamı qəbul edir: II Qarabağ müharibəsi Cənubi Qafqazın geosiyasi dinamikasını və bütövlükdə mənzərəsini dəyişmişdir! Bu, Azərbaycan Respublikasının dövlət kimi tarixi, siyasi və geosiyasi uğurudur.

Məhz həmin aksiom kimi qəbul edilən faktdan çıxış edərək əksər media orqanları Azərbaycanın regional miqyasda müsbət rolunu təhlil edir. Bununla yanaşı, bir sıra KİV orqanları tamamilə qərəzli və xüsusi məqsəd güdən mövqedən Azərbaycan dövlətçiliyinə böhtan atmağa çalışırlar. Hazırda bu iki informasiya axınının kəsişməsində faktiki olaraq Azərbaycan informasiya məkanı özünü yenidən təşkil etməyə məcburdur.

Məsələ bununla məhdudlaşmır. Yerli və xarici KİV aktiv şəkildə Azərbaycan cəmiyyətində gedən proseslərin jurnalistik izahını verməyə çalışırlar. Burada da çox fərqli baxışlara rast gəlmək olur. Təəssüf ki, bir sıra hallarda qeyri-peşəkarlıq və dövlət dilini lazımi səviyyədə bilməmək öz mənfi təsirini göstərir. Ancaq ümumi tendensiya olaraq Azərbaycan mediasının yeni səviyyəyə yüksəldiyi özünü biruzə verməkdədir.

Xarici medianın Azərbaycan cəmiyyətinə təsiri isə ziddiyyətlidir. Bir sıra hallarda onlar sosial ziddiyyətləri və çatışmayan cəhətləri fərqli kontekstdə xüsusi niyyətlə təbliğat üçün təqdim edirlər. Bu, xüsusilə türk dövlətlərinin birliyi məsələsində özünü göstərir. Elə olur ki, dil və milli mədəniyyətə qərəzli münasibət yer alır. Bunlar bizi çox düşündürür, lakin başlıca tendensiya bu istiqamətdə də milli faktorun daha da gücləndirilməsindən ibarətdir.

Bu prosesin detalları üzərində dayanmayaq. Bizim üçün burada əsas olanı dövlət başçısının III Şuşa Qlobal Media Forumunda verilən suallara cavablarında Azərbaycan və bütövlükdə dünya üçün aktual olan bir sıra prinsipial siyasi, diplomatik və politoloji məqamların yer almasıdır.

### XXI əsrdə uğurlu liderlik nümunəsi

III Şuşa Qlobal Media Forumunda Azərbaycan Prezidentinə verilən bir sual bütövlükdə XXI əsrdə uğurlu liderlik nümunəsi məsələsini diqqət mərkəzinə gətirir.

Forumda söz alan Mixail Qusman sualına bir az uzaqdan, lakin maraqlı mövqedən başladı. Rusiyalı jurnalist öncə Azərbaycanın bənzəri olmayan bir siyasət yeritdiyini vurğuladı. O dedi: "Bu gün Azərbaycan, fikrimcə, tamamilə nadir xarici siyasət yürüdür. Başqa hansı dövlətlə müqayisə oluna biləcəyini də bilmirəm". Bu tezisinin təsdiqi kimi o, Azərbaycanın Rusiya, ABŞ, Türkiyə, İran, Çin, Avropa İttifaqı ölkələri ilə münasibətlərini nümunə olaraq gətirdi.

Mixail Qusmanın sonrakı fikirlərindən aydın oldu ki, vurğuladığı faktları adi hesab etmir. O, açıq bəyan etdi ki, "Bunda müəyyən bir fenomen var, onu dünyada heç də hamı başa düşmür. Mənə elə gəlir ki, dünyada heç də hamı bunu layiqincə qiymətləndirmir. Bununla bağlı sadə bir sualım var".

Sual, doğrudan da, quruluşca "sadə" idi. M.Qusman maraqlanırdı: "Sizin siyasətiniz müəyyən, mənə elə gəlir ki, çox aydın, çox yaxşı düşünülmüş siyasi prinsiplərə əsaslanır ki, bu, çoxvektorlu siyasəti həyata keçirməyə imkan verir. Siz Prezident Əliyevin, zənnimcə, belə uğurlu xarici siyasət yürütməsini şərtləndirən 5-7 təməl siyasi prinsiplərini deyə bilərsinizmi?"

Sualın məzmunu konteksti ilə məqsədinin bir-birini tamamlamasından qaynaqlanır. Lakin hər iki məqamın son hədəfi "müasir mərhələdə uğurlu liderliyin təməl prinsipləri hansılar ola bilər?" sualı ilə bağlıdır.

Bu məqamı çox gözəl tutan Prezident İlham Əliyev yığcam və diplomat məharəti ilə cavab verdi. Azərbaycanın lideri ifadə etdi: "Mən bir dəfə avropalı həmkarlarımla qapalı görüşdə, hələ 2020-ci ildən sonra, amma 2023-cü ildən əvvəl, vəziyyət müzakirə olunanda, burada, Xankəndidə hələ də separatçılar olanda bildirmişdim ki, - o qədər uzun söhbət gedirdi, - mən bir dəfə dedim ki, bunu açıq, üz-üzə demişəm, yəni, yox, xalqıma heç vaxt yalan söyləmirəm. Beləcə də dedim. Bu, əslində, doğrudur. Amma sualınıza cavab olaraq, mən beynəlxalq həmkarlara da heç vaxt yalan danışmamağa çalışıram. Əlbəttə, imkan daxilində".

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Münaqişə və geosiyasətdə Azərbaycan nümunəsi

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan 1990-cı illərin əvvəllərində postsovet məkanında baş vermiş geosiyasi transformasiyanın ən ağır yükünü daşıyan dövlətlərdən biri oldu. SSRİ-nin süqutundan sonra yaranan "strateji vakuum" regionu qeyri-müəyyənliyin və toqquşan maraqların arenasına çevirdi. Yeni yaranmış müstəqil dövlətlər hüquqi cəhətdən suveren idilər, lakin faktiki olaraq beynəlxalq sistemdə özlərinə mövqe qazana bilməmişdilər. Azərbaycan da bu sistemsizlik şəraitində öz suverenliyini qorumağa, dövlətçiliyini bərqərar etməyə çalışarkən, Ermənistanın açıq şəkildə dəstəklədiyi separatçılıqla üz-üzə qaldı.

Ərazilərinin beşdə biri işğal edildi, bir milyona yaxın insan doğma torpaqlarından didərgin salındı. Vəziyyət beynəlxalq hüququn prinsipial uğursuzluğu idi. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin yerinə yetirilməməsi isə qlobal təhlükəsizlik sisteminin selektiv və qeyri-effektiv xarakterini bir daha üzə çıxardı. Həmin dövrdə beynəlxalq hüquq yalnız normativ bir ritorika, kağız üzərində qalmış prinsiplər toplusu idi – real güc isə status-kvonu təyin edirdi. İkiqütblü dünyanın çöküşündən sonra yaranmış "təkqütblü an" daha çox hegemon güclərin maraqlarına əsaslanan siyasətə yol açdı. Cənubi Qafqaz isə həmin maraqların periferiyasında qaldı. Azərbaycan üçün bu, həm siyasi, həm də hüquqi müstəvidə əsl təcrid mərhələsi idi.Azərbaycanın yaşadığı bu təcrid və ikili standartlar dövrü, əslində, onun gələcək strateji orientasiyasını və müstəqil qərarvermə modelini formalaşdıran əsas səbəblərdən birinə çevrildi.





Lakin bu çətin və taleyüklü dönəm ilk baxışda geriləmə kimi görünsə də, əslində gələcək qələbənin ideoloji və struktur əsaslarının formalaşdırıldığı bir mərhələ idi. Məhz bu illər ərzində Azərbaycan klassik dövlətçilik məktəbinin əsas prinsiplərinə – mərkəzləşmiş siyasi iradə, iqtisadi suverenlik və hərbi hazırlıq düsturuna əsaslanan bir model qurmağa başladı. Heydər Əliyevin siyasi liderliyi ilə ölkədə daxili sabitlik təmin olundu, xaosun yerini sistem aldı.

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyini təmin etməklə yanaşı, onu beynəlxalq enerji sisteminə daxil edən geoiqtisadi dönüş nöqtəsi oldu. Ən başlıcası isə beynəlxalq aləmdə Azərbaycanı haqlı, legitim və prinsipial mövqedə təqdim edən konseptual diplomatik xətt formalaşdı. Bu xətt nə aqressiv idi, nə də müdafiəkar – bu, geosiyasi ədalətin bərpasına yönəlmiş realist, amma hüquq əsaslı yanaşma idi.

İlham Əliyevin prezidentliyi dövründə isə bu xətt həm məzmun, həm də miqyas baxımından təkamül keçirdi. Azərbaycanın transformasiyası regional aktordan strateji oyunçuya çevrilməsi ilə müşayiət olundu. Enerji və nəqliyyat layihələri, xüsusilə TAP, TANAP, Bakı–Tbilisi–Qars kimi layihələr ölkəni Avrasiya geosiyasi enerji təhlükəsizliyinin arxitekturlarından birinə çevirdi. Diplomatiyada isə Azərbaycanın çoxvektorlu və praqmatik yanaşması beynəlxalq münasibətlər sistemində "riskləri balanslaşdırma" strategiyasının uğurlu tətbiq nümunəsi oldu. Azərbaycan nə yalnız Qərbə inteqrasiya cəhdləri ilə özünü sərhədlədi, nə də yalnız Şərq tərəfdaşlığına bağlı qaldı. BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı kimi platformalarda Azərbaycanın aktiv iştirakı isə qlobal sistemdə normativ güc mərkəzinə çevrilmək iddiasının təməl daşlarıdır.

2020-ci ilin payızında Ermənistanın növbəti təxribatları fonunda diplomatik mexanizmlərin tükəndiyi bir şəraitdə Azərbaycan hərbi əməliyyatlara başladı. 44 gün davam edən Vətən müharibəsi illərlə formalaşan strateji iradənin və milli həmrəyliyin təntənəsi idi. Azərbaycan Ordusu texnoloji cəhətdən müasir, ideoloji baxımdan motivasiyalı idi. Ordunun gücü ilə xalqın iradəsi birləşmişdi və nəticədə işğal altında olan torpaqlar azad edildi. Ermənistanın kapitulyasiyası isə Azərbaycanın diplomatiya masasında üstün olduğunu sübut etdi.

Qələbədən sonra ölkənin qarşısında yeni mərhələ – postmünaqişə bərpa prosesi başladı. Azərbaycan bu mərhələyə yalnız fiziki rekonstruksiya kimi yanaşmadı. "Böyük Qayıdış" proqramı həm də sosial ədalətin, tarixi yaddaşın və əhalinin layiqli həyat şəraitinin bərpası idi. Azad edilmiş ərazilərdə "ağıllı" şəhərlər salınır, "yaşıl" enerji layihələri həyata keçirilir, infrastruktur müasir standartlara uyğun qurulur. Proses Azərbaycanın sülh şəraitində də uğur qazana bilən dövlət olduğunu nümayiş etdirir.

Forumun məhz Xankəndidə keçirilməsi isə bu uğurun ideoloji təsdiqi oldu. Əvvəllər separatizmin mərkəzi kimi tanınan bu şəhər artıq beynəlxalq dialoqun və sülh gündəliyinin platformasına çevrilib. Prezidentin həmin forumda Ukraynaya verdiyi mesaj – "işğalla barışmayın" – Azərbaycana məxsus bu kompleks modelin ümumiləşmiş forması idi. Prezident İlham Əliyevin mesajı siyasi və dəyərlər əsaslı çağırış idi. Çünki müasir beynəlxalq münasibətlərdə hüquq çox zaman gücə tabe edilir. Azərbaycan isə bu tendensiyanı öz nümunəsi ilə dəyişdirməyə çalışır.

Burada diqqətçəkən digər məqam informasiya müharibəsində Azərbaycan modelinin rolu ilə bağlıdır. 2020-ci il müharibəsində Azərbaycanın apardığı informasiya siyasəti – şəffaf, məqsədyönlü və effektiv kommunikasiya strategiyası – münaqişənin beynəlxalq aləmdə necə təqdim olunacağını müəyyənləşdirdi. Tarixi zəfər göstərdi ki, müasir münaqişələr təkcə cəbhədə deyil, həm də informasiya meydanında həll olunur. Azərbaycanın əldə etdiyi diplomatik və informasiya üstünlüyü bu sahədə də nümunəvi yanaşma formalaşdırdı.

Azərbaycan modeli bu gün qlobal səviyyədə də öyrənilməli nümunədir. Xüsusilə, beynəlxalq hüququn selektiv tətbiq olunduğu, dünya nizamının təzyiqlərə və ikili standartlara əsaslandığı bir zamanda Azərbaycanın müstəqil qərarvermə modeli və milli maraqlar əsasında formalaşmış xarici siyasəti çox mühüm presedent yaradır. Mövcud presedent həm də suverenliyin qorunması, milli kimliyin gücləndirilməsi və postmünaqişə quruculuğunun inteqrasiyalı şəkildə aparılması baxımından önəmlidir.

Azərbaycan artıq yalnız bir münaqişədən çıxmış dövlət deyil. O, həm də yeni regional arxitekturanın formalaşdırılmasında fəal iştirak edən, sülh təşəbbüsləri irəli sürən, sabitlik ixrac edən aktora çevrilib. Hərbi qələbədən sonra gələn ən böyük uğur geosiyasi təşəbbüs sahibi olmaqdır. Xankəndidə keçirilən Şuşa Forumunun yaratdığı mənzərə isə bu təşəbbüsün mahiyyətini və gücünü ifadə edir: keçmişin xarabalıqları üzərində gələcəyin qurulması və bu gələcəyin yerli və beynəlxalq maraqlar balansında idarə olunması. Bugünkü mənzərə müasir dünyanın ən mühüm dərslərindən birini təqdim edir – qalibiyyət yalnız hərb meydanında deyil, həm də ideyalar platformasında qazanılır. Azərbaycan isə bu iki müstəvini birləşdirə bilən azsaylı dövlətlərdən biridir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 197 Bakı şəhəri, 4 iyul 2025-ci il**

**“Heyvanlar aləmi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 73-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Heyvanlar aləmi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında” və “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 73-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 22 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 119 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 may tarixli 153 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu haqqında Əsasnamə”nin 3.4-cü bəndinə “bərpa dəyəri” sözlərindən sonra “və ya dəymiş ziyan” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 9 mart tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 232 (Cild I); 2024, № 1, maddə 81) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının yaşayış məntəqələrində it, pişik və ya digər ev heyvanlarının saxlanması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1-ci bənddə “qəddar davranmamalı, onlara ağrı, yaxud zərər verməməli” sözləri “rəhmsiz rəftar etməməli, yəni onlara ağrı, əzab, işgəncə verilməsi, onların döyülməsi və döyüşdürülməsi nəticəsində onları şikəst və ya tələf etməməli, rəhmsiz rəftarı nümayişkaranə şəkildə, o cümlədən mediada nümayiş etdirilməklə törətməməli, belə rəftarı təbliğ etməməli və ya belə rəftara açıq çağırışlar etməməli və bu cür rəftarı özündə əks etdirən materialları kommersiya məqsədləri üçün istifadə etməməli” sözləri ilə əvəz edilsin;

2.2. 6-cı hissənin adında “qəddar” sözü “rəhmsiz” sözü ilə əvəz edilsin;

2.3. 6.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“6.1. Heyvanlarla rəhmsiz rəftar edən, yəni onlara ağrı, əzab, işgəncə verilməsi, onların döyülməsi və döyüşdürülməsi nəticəsində onları şikəst və ya tələf edən, rəhmsiz rəftarı nümayişkaranə şəkildə, o cümlədən mediada nümayiş etdirilməklə törədən, belə rəftarı təbliğ edən və ya belə rəftara açıq çağırışlar edən və bu cür rəftarı özündə əks etdirən materialları kommersiya məqsədləri üçün istifadə edən şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb olunurlar.”.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 227 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1204 (Cild I) ilə təsdiq edilmiş “Yaşıllıqlara qulluq, onların xəstəlik və zərərvericilərdən mühafizəsi Qaydası”nın 1.1-ci bəndində “meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) istisna olmaqla, respublika” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər), habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar istisna olmaqla, ölkə” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 avqust tarixli 321 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1457 (Cild I); 2024, № 5 (II kitab), maddə 611, № 9, maddə 1060) ilə təsdiq edilmiş “Yaşıllıqların götürülməsi Qaydası”nın 1.1-ci bəndində “meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində olan yaşıllıqlar, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) istisna olmaqla, respublika” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər), habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar istisna olmaqla, ölkə” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 oktyabr tarixli 421 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1738 (Cild I) ilə təsdiq edilmiş “Yaşıllıqlara dəymiş ziyanın hesablanması və ödənilməsi Qaydası”nın 1.1-ci bəndində “meşə fondu torpaqlarında, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində olan yaşıllıqlar, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) istisna olmaqla, respublika” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər), habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar istisna olmaqla, ölkə” sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 noyabr tarixli 434 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1922 (Cild I) ilə təsdiq edilmiş “Yaşıllıqların mühafizəsi sahəsində iqtisadi həvəsləndirmə formaları və Qaydası”nın 1.1-ci bəndində “meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində olan yaşıllıqlar, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) istisna olmaqla, respublika” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər), habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar istisna olmaqla, ölkə” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 dekabr tarixli 526 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2242 (Cild I); 2024, № 6 (II kitab), maddə 724) ilə təsdiq edilmiş “Yaşıllıqların mühafizəsinə nəzarətin həyata keçirilməsi Qaydası”nın 1.1-ci bəndində “meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində olan yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) istisna olmaqla, respublika” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər), habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar istisna olmaqla, ölkə” sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 fevral tarixli 71 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 324 (Cild I); 2024, № 6 (II kitab), maddə 724) ilə təsdiq edilmiş “Yaşıllıq salınması məqsədi ilə bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının və əhalinin əkin materialları, avadanlıq, inventar və digər vasitələrlə əvəzsiz təmin olunması Qaydası”nın 1.1-ci bəndində “meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) istisna olmaqla, respublika” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər), habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar istisna olmaqla, ölkə” sözləri ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 31 mart tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 516 (Cild I) ilə təsdiq edilmiş “Yaşıllıqların bərpası Qaydası”nın 1.1-ci bəndində “meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində olan yaşıllıqlar, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) istisna olmaqla, respublika” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlar, kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər), habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar istisna olmaqla, ölkə” sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 oktyabr tarixli 467 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1929 (Cild I) ilə təsdiq edilmiş “Yaşıllıqların mühafizəsi məqsədi ilə ağac, kol, gül-çiçək və ot bitkilərinin və onların genetik materiallarının Azərbaycan Respublikasına gətirilməsi və onun hüdudlarından kənara aparılması Qaydası”nın 1.2-ci bəndində “meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrində əkilməsi, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində əkilməsi, kənd təsərrüfatı məhsulları istehsalı, habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrində əkilməsi üçün” sözləri ilə əvəz edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 23 yanvar tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 137 (Cild I); 2024, № 6 (II kitab), maddə 724) ilə təsdiq edilmiş “Yaşıllıqların müfəssəl siyahısının tərtib edilməsi qaydası, təyinatı və onlardan istifadə Qaydası (rejimi)”nın 1.2-ci bəndində “meşə fondu torpaqlarında, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrində olan, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlara (əkinlərə)” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində olan yaşıllıqlara, kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlara (əkinlərə), habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlara” sözləri ilə əvəz edilsin.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 15 may tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1125 (Cild I) ilə təsdiq edilmiş “Yaşıllıqların uçotunun, kadastrının və monitorinqinin aparılması Qaydası”nın 1.1-ci bəndində “meşə fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində olan yaşıllıqlar, xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər)” sözləri “meşə fonduna daxil olan və xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində olan yaşıllıqlar, kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər), habelə xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin avqust ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Bərdə** | Bərdə, Tərtər | **01** |
| 2. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Qusar** | Qusar, Quba | **01** |
| 3. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Ağsu** | Ağsu, İsmayıllı | **01** |
| 4. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Hacıqabul** | Hacıqabul, Şirvan, Salyan, Neftçala, Biləsuvar | **04** |
| 5. | **Baş prokuror** Kamran Əliyev | **Qəbələ** | Qəbələ, Oğuz, İsmayıllı | **08** |
| 6. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Ağsu** | Ağsu, İsmayıllı, Şamaxı, Qobustan, Göyçay, Kürdəmir | **08** |
| 7. | **Baş prokuror** Kamran Əliyev | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı | **15** |
| 8. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Şamaxı** | Şamaxı, Qobustan | **15** |
| 9. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **15** |
| 10. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Tovuz** | Tovuz, Ağstafa, Qazax | **15** |
| 11. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Naftalan** | Naftalan, Gəncə, Samux, Goranboy, Daşkəsən, Göygöl, Kəlbəcər, Xocalı | **18** |
| 12. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı | **2** |
| 13. | **Energetika naziri** Pərviz Şahbazov | **Samux** | Samux, Gəncə, Şəmkir, Göygöl, Daşkəsən, Goranboy | **2** |
| 14. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Saatlı** | Saatlı, Sabirabad, İmişli, Füzuli, Beyləqan, Xocavənd, Cəbrayıl | **2** |
| 15. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Qax** | Qax, Şəki, Oğuz, Qəbələ, Zaqatala, Balakən | **2** |
| 16. | **“Azəristiliktəchizat” ASC-nin sədri** İlham Mirzəliyev | **Qazax** | Qazax, Ağstafa, Tovuz | **2** |
| 17. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Daşkəsən** | Daşkəsən, Göygöl | **25** |
| 18. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **İsmayıllı** | İsmayıllı, Ağsu, Şamaxı, Qobustan | **8** |
| 19. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **İsmayıllı** | İsmayıllı, Şamaxı | **29** |
| 20. | **Mədəniyyət naziri** Adil Kərimli | **Şəmkir** | Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax | **29** |
| 21. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Şabran** | Şabran, Siyəzən, Xızı, Sumqayıt | **29** |
| 22. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **29** |
| 23. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Qazax** | Qazax, Ağstafa, Tovuz | **29** |
| 24. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Şirvan** | Şirvan, Hacıqabul | **29** |
| 25. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **29** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 215 Bakı şəhəri, 16 iyul 2025-ci il**

**“Dövlət İnvestisiya Proqramına daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə**

“Dövlət investisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 257 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dövlət İnvestisiya Proqramına daxil edilən investisiya layihələrinin icrasının monitorinqi və nəticələrinin qiymətləndirilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi aidiyyəti dövlət orqanları ilə birlikdə Dövlət İnvestisiyalarının İdarəedilməsi İnformasiya Sisteminin yaradılması və tətbiqi istiqamətində tədbirlər görsün.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 218 Bakı şəhəri, 18 iyul 2025-ci il**

**“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 49.5-ci maddəsinə uyğun olaraq, həmin Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin Xidmətin hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 152-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 aprel tarixli 371 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 49.5-ci maddəsinə uyğun olaraq, həmin Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin Xidmətin hesabına köçürülən vəsaitdən istifadə Qaydası” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

# Beynəlxalq maliyyə qurumu dayanıqlı inkişafı dəstəkləyir

## BVF ilə əməkdaşlıq davam etdirilir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" hesabında etdiyi paylaşımda Beynəlxalq Valyuta Fondu (BVF) ilə makroiqtisadi göstəricilər, proqnozlar, iqtisadiyyatın diversifikasiyası ilə bağlı müzakirələr aparıldığını bildirib.**

Nazir qeyd edib ki, ölkəmizdə dayanıqlı iqtisadi inkişaf modelinin dəstəklənməsi istiqamətində beynəlxalq maliyyə qurumları ilə tərəfdaşlıq mühüm önəm daşıyır. BVF-nin Azərbaycan üzrə missiya rəhbəri Anna Bordon ilə görüşdə də bu fondla əməkdaşlığın inkişafı məmnunluqla ifadə edilib.

sidir. Ölkəmizin makroiqtisadi göstəriciləri və proqnozlar, iqtisadiyyatın diversifikasiyası, vergi islahatları ilə bağlı aparılan müzakirələrdə tərəflər arasında əməkdaşlığın daha da dərinləşdirilməsi zəruriliyinin vurğulanması bu məsələnin prioritetliyinin göstəricisidir.

Azərbaycan bu gün iqtisadi inkişafının yeni və çoxşaxəli bir mərhələsini yaşayır. Ölkəmiz qlobal çağırışların, texnoloji yeniliklərin və ekoloji tələblərin artdığı bir dövrdə mövcud resurslara arxalanmaqla yanaşı, institusional və struktur islahatlara söykənən inklüziv və dayanıqlı inkişaf modelini də həyata keçirir. Bu transformasiya prosesi yalnız daxili potensiala deyil, həm də beynəlxalq təcrübəyə, qlobal tərəfdaşlığa əsaslanır. Bu baxımdan BVF ilə əməkdaşlıq Azərbaycan üçün mühüm strateji önəm daşıyır.

Azərbaycan iqtisadiyyatı son illərdə dərin və əhatəli islahatlarla müşayiət olunan transformasiya mərhələsinə qədəm qoyub. Neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun gücləndirilməsi, özəl təşəbbüslərin stimullaşdırılması və dövlət idarəetməsinin çevikləşdirilməsi istiqamətində gerçəkləşdirilən tədbirlər bu islahatların əsas istiqamətlərini təşkil edir. Bu yanaşma mövcud problemlərin həlli ilə bərabər, həm də ölkənin uzunmüddətli inkişaf trayektoriyasının formalaşmasını şərtləndirir.

İslahatlar, eləcə də rəqəmsal iqtisadiyyatın inkişafı, "ağıllı" kənd və şəhər layihələrinin tətbiqi, e-hökumət xidmətlərinin genişləndirilməsi və vergi – büdcə intizamının gücləndirilməsi kimi sahələri də əhatə edir. Bu proseslərdə beynəlxalq institutlarla, xüsusilə BVF ilə sıx əməkdaşlıq Azərbaycanın qlobal iqtisadi mühitə uyğunlaşmasını asanlaşdırır.

Azərbaycanın BVF ilə əməkdaşlığı uzunmüddətli tərəfdaşlıq xarakteri daşıyır və ölkənin iqtisadi idarəetmə sistemində beynəlxalq standartların tətbiqinə geniş imkanlar yaradır. Bu beynəlxalq maliyyə qurumu ilə təmaslar həm fiskal siyasətin çevikliyinin artırılması, həm də makroiqtisadi sabitliyin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Fondun analitik dəstəyi, məsləhətləri və texniki yardımları sayəsində Azərbaycan iqtisadiyyatında fiskal intizam getdikcə daha da möhkəmlənir, şəffaflıq və hesabatlılıq prinsipləri prioritetə çevrilir.




Xüsusilə pandemiyadan sonrakı dövrdə BVF ilə dialoqlar, makroiqtisadi sabitliyin qorunması və struktur islahatların davamlılığı üçün ciddi töhfə verib. BVF nümayəndə heyətlərinin respublikamıza mütəmadi səfərləri və dəyərləndirmələri, ölkəmizdə aparılan siyasətlərin obyektiv qiymətləndirilməsinə və yeni strateji hədəflərin müəyyən edilməsinə imkan yaradır.

Azərbaycan hökumətinin əsas strateji hədəflərindən biri iqtisadiyyatın şaxələndirilməsidir. Bu prosesin uğurla reallaşdırılması üçün sənayenin, kənd təsərrüfatının, turizmin və xidmət sektorunun inkişafı prioritetdir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərin iqtisadi fəal zonalar kimi inkişaf etdirilməsi də bu məqsədə xidmət edir.

Digər mühüm istiqamət isə "yaşıl" inkişafdır. Azərbaycanın enerji sektorunda başladığı irimiqyaslı "yaşıl" enerji layihələri, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin fəaliyyəti, beynəlxalq investorların bu sahəyə cəlbi və "yaşıl" zona konsepsiyası ölkəmizin ekoloji tarazlığa göstərdiyi önəmin göstəricisidir. BVF isə bu sahədə texniki məsləhət və tədqiqat dəstəyi ilə Azərbaycanın "yaşıl" keçid prosesinə əhəmiyyətli töhfə verir.

Müasir dövrdə iqtisadi inkişaf yalnız resursların səfərbərliyi ilə deyil, həm də səmərəli idarəetmə sistemi ilə mümkündür. Azərbaycanda son illərdə aparılan institusional islahatlar – dövlət müəssisələrinin korporativləşdirilməsi, idarəetmədə şəffaflığın artırılması, dövlət satınalmalarının təkmilləşdirilməsi və rəqəmsallaşma bu istiqamətdə atılan əsas addımlardır. BVF ilə əməkdaşlıq isə dövlət maliyyəsinin idarə olunması, büdcə sisteminin təkmilləşdirilməsi və maliyyə risklərinin azaldılması sahəsində önəmli rol oynayır.

Əldə olunan nailiyyətlər onu göstərir ki, Azərbaycan idarəetmədə innovativ yanaşmalara, süni intellekt və rəqəmsal texnologiyalara əsaslanan modellərin tətbiqinə doğru irəliləyir. Bu, bürokratik maneələrin aradan qaldırılması və idarəetmədə çevikliyin təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycan iqtisadiyyatında özəl sektorun inkişafı hökumətin əsas prioritetlərindən biridir. Sahibkarlığın stimullaşdırılması üçün vergi güzəştləri, dövlət zəmanətli kredit mexanizmləri, güzəştli maliyyələşmə vasitələri və startap təşviq paketləri tətbiq olunur. Lakin özəl sektorun dayanıqlı inkişafı üçün bank-maliyyə sisteminin daha çevik və inklüziv olması zəruridir.

Bu sahədə BVF ilə əməkdaşlıq xüsusilə vacibdir. Çünki bu beynəlxalq qurum maliyyə bazarlarının sabitliyinin qorunması, kredit risklərinin qiymətləndirilməsi, bank nəzarətinin gücləndirilməsi və maliyyə inklüzivliyinin artırılması sahələrində Azərbaycan üçün dəyərli texniki və strateji məsləhətlər təqdim edir. Bununla yanaşı, regional investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər də özəl sektorun resurslara çıxışını genişləndirir.

Azərbaycanın iqtisadi siyasəti dayanıqlılıq və inklüzivlik prinsipləri üzərində həyata keçirilir. Sosial rifahın gerçəkləşdirilməsi, iqtisadi imkanların bərabər paylanılması, regionlar üzrə balanslı inkişaf və sosial müdafiə sisteminin gücləndirilməsi bu modelin əsas elementləri kimi qəbul edilir. Rəqəmsal iqtisadiyyatın genişlənməsi, qadın sahibkarlığının təşviqi, gənclər üçün iqtisadi imkanların artırılması kimi addımlar isə inklüzivliyin təmin olunmasında xüsusi rol oynayır.

BVF-nin təqdim etdiyi hesabatlar və strateji baxışlar sözügedən modelin qurulmasında Azərbaycanın doğru yolda olduğunu təsdiqləyir. Fondun qlobal təcrübəsi və məsləhət imkanları Azərbaycanın strateji planlaşdırma qabiliyyətinin güclənməsinə şərait yaradır.

Azərbaycan iqtisadiyyatı hazırda çoxşaxəli və dərin islahatlar mərhələsindədir. Bu transformasiya prosesi ölkəmizin gələcək inkişafını gerçəkləşdirəcək əsas dayaqlardan birinə çevrilir. BVF ilə əməkdaşlıq isə bu prosesin etibarlı və uğurlu həyata keçirilməsində mühüm rol oynayır. İqtisadiyyatın şaxələndirilməsi, "yaşıl" inkişafa nail olunması, idarəetmənin təkmilləşdirilməsi və maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi – bütün bu istiqamətlər Azərbaycanın dayanıqlı və inklüziv iqtisadi model qurmaq səylərinin tərkib hissəsidir.

Azərbaycan bu istiqamətdə atdığı addımlarla yalnız milli maraqlarını deyil, həm də regional və qlobal iqtisadi sabitliyin gücləndirilməsinə töhfə verir. Bu baxımdan ölkəmizin beynəlxalq tərəfdaşlarla, xüsusilə də BVF ilə əməkdaşlığını davam etdirməsi qarşıya qoyulan strateji hədəflərə çatmaq üçün vacib və etibarlı zəmin olaraq qalır.

# Neftçilərimiz Özbəkistanda neft axtaracaqlar



**Daşkənddə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövşən Nəcəf, Özbəkistanın energetika naziri Jurabek Mirzamahmudov və "Uzbekneftegaz" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Baxodirjon Sidiqov arasında görüş keçirilib.**

Görüşdə ARDNŞ ilə "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olunub. Bu xüsusda, "Üstyurt" investisiya bloklarının (Boyterak, Terenqquduq, Birqori, Xaroy, Qoraqalpoq və Qulboy) kəşfiyyatı, işlənməsi və hasilatı üzrə pay bölgüsü sazişinin imzalanmasının əhəmiyyəti qeyd edilib. Şirkətlər arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

Daha sonra iki ölkənin neft qurumları ilə Özbəkistan Respublikasının Hökuməti arasında Özbəkistandakı "Üstyurt" investisiya bloklarının (Boyterak, Terenqquduq, Birqori, Xaroy, Qoraqalpoq və Qulboy) kəşfiyyatı, işlənməsi və hasilatı üzrə pay bölgüsü sazişi imzalanıb.

Sazişin icra müddətinin ilkin mərhələsində perspektivli sahələrin təyin olunması məqsədilə geoloji-kəşfiyyat işlərinin aparılması nəzərdə tutulur. Bu müddət ərzində ARDNŞ operator olaraq fəaliyyət göstərəcək. Sənədə əsasən, axtarış-kəşfiyyat işlərinin və azı bir kəşfiyyat quyusunun qazılmasının ilkin olaraq 5 il müddətində yekunlaşdırılması planlaşdırılır.

Sazişin imzalanması enerji sahəsində strateji əməkdaşlıq üçün yeni imkanlar açır. Bu da hər iki tərəf üçün fayda gətirəcək.

# Yanacaq sektorundan daxilolmalar artıb



**Bu ilin birinci yarısında neft-qaz sektorundan düdcəyə 9 milyard 527 milyon manat vəsait daxil olub ki, bu da proqnozla müqayisədə 247,8 milyon manat və ya 2,7 faiz, 2024-cü ilin müvafiq dövrünə nisbətən isə 728,8 milyon manat və ya 8,3 faiz çoxdur.**

Maliyyə Nazirliyinin məlumatına əsasən, hesabat dövründə dövlət büdcəsinin gəlirlərində neft-qaz sektoru üzrə daxilolmaların 24 faizi və ya 2 milyard 286 milyon manatı vergi orqanlarının xətti ilə daxilolmaların, 76 faizi və ya 7 milyard 240 milyon manatı Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin payına düşür.

Qeyd edək ki, 2025-ci ilin ilk altı ayında dövlət büdcəsinin gəlirləri 19 milyard 99 milyon manat proqnoza qarşı 19 milyard 804 milyon manat və yaxud 704,8 milyon manat (3,7 faiz), ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 5,1 faiz və ya 961,1 milyon manat çox icra edilib. Bu isə cari ilin dövlət büdcəsinin illik gəlirlərinin 51,6 faizinə bərabər olub.

Hesabat dövründə dövlət büdcəsinin xərcləri 17 milyard 96 milyon manat məbləğində icra edilməklə illik dövlət büdcəsi xərclərinin 41,3 faizinə bərabər olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1 milyard 43 milyon manat və ya 6,5 faiz çoxdur.

# BMT Azərbaycanın şəhərsalma uğurlarını yüksək dəyərləndirir

**Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev BMT-nin Məskunlaşma Proqramı və İtaliyanın dünya birliyindəki Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilən "Dayanıqlı İnkişaf Məqsədlərinin Lokallaşdırılması üzrə Tərəfdaşlıq Platforması"na həsr olunmuş Yüksək Səviyyəli Məclisdə iştirak edib.**

Komitə sədri Azərbaycan ilə İtaliya arasında enerji, ticarət, təhsil və mədəniyyət sahələrini əhatə edən ikitərəfli münasibətlərin yüksək səviyyəsini vurğulayıb, bu əməkdaşlığın şəhərsalma, yaşıl infrastruktur və DİM-lərin həyata keçirilməsi sahələrində də genişləndirilə biləcəyini vurğulayıb. O bildirib ki, ölkəmizdə "Azərbaycan 2030: Milli Prioritetlər" çərçivəsində Dayanıqlı İnkişaf Məqsədləri sosial rifah, iqtisadi artım, ətraf mühitin qorunması və səmərəli idarəçilik prinsipləri ilə tam şəkildə inteqrasiya edilib.

Anar Quliyev daha sonra qeyd edib ki, Azərbaycanda DİM-lərin uğurlu icrası şəhər mühitinin necə planlaşdırılması və idarə olunmasından birbaşa asılıdır. Bu baxımdan şəhərsalma qlobal hədəflərin yerli fəaliyyətə çevrilməsində əsas rola malikdir. Azərbaycanda şəhərsalmanın milli inkişaf strategiyasının aparıcı elementi kimi qəbul edildiyini vurğulayan A.Quliyev hazırda ölkə üzrə şəhərlərin 86 faizinin 20 illik yenilənmiş baş planlarla layihələndirildiyini bildirib.



Toplantıda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma proseslərinə də toxunulub. "Daha yaxşı bərpa" prinsipinə əsaslanan yanaşmanın yalnız məcburi köçkünlərin qayıdışını deyil, həm də regionun gələcək şəhər inkişafına nümunə olacaq dayanıqlı və inklüziv məkanların formalaşdırılmasını nəzərdə tutduğu qeyd edilib. Bu prosesin səmərəli koordinasiyası məqsədilə yaradılmış Prezidentin xüsusi nümayəndəlikləri institutunun müxtəlif idarəetmə səviyyələri arasında praktiki əməkdaşlıq və DİM-lərin lokallaşdırılması üçün funksional çərçivə rolunu oynadığı bildirilib.

Komitə sədri 2026-cı ilin may ayında Bakıda keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumu çərçivəsində DİM-lərin əsas müzakirə mövzularından biri olacağını diqqətə çatdırıb. O, həmçinin cari ilin oktyabrında Azərbaycanda keçiriləcək 3-cü Milli Şəhərsalma Forumu barədə məlumat verərək tədbir çərçivəsində DİM-lərin lokallaşdırılmasına həsr olunmuş ayrıca sessiyanın təşkil olunacağını, yerli hökumətlərin, vətəndaş cəmiyyəti institutlarının və digər tərəfdaşların bir araya gələcəyini bildirib. Tədbir zamanı UN-Habitat və İtaliyanın Ekologiya və Enerji Təhlükəsizliyi Nazirliyi də daxil olmaqla tərəfdaş qurumlar Milli Foruma dəvət edilib.

# AYİB-in ölkəmizə dəstəyi 3,5 milyard avroya çatıb




**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycanda həyata keçirdiyi ödəniş və təqdim etdiyi zəmanətlərin ümumi məbləği 2025-ci ilin iyul ayında 3 milyard 456 milyon avroya yüksəlib. Başqa sözlə, son bir ayda bu rəqəm 10,3 faiz və ya 324 milyon avro artıb.**

Bu da AYİB-in ölkədə qeyri-neft iqtisadiyyatının inkişafına, yerli maliyyə institutlarının gücləndirilməsinə və yaşıl iqtisadiyyat layihələrinə yönəlmiş dəstəyinin davam etdiyini göstərir. Belə ki, hazırda bankın Azərbaycandakı ümumi investisiyası 3 milyard 783 milyon avro, aktiv portfelinin həcmi 991 milyon, əməliyyat aktivləri 717 milyon avro təşkil edir. Bankın ölkəmizdə həyata keçirdiyi layihələrin sayı 34-dür. Portfelin 38 faizi özəl sektorun, 1 faizi isə səhm investisiyalarının payına düşür.

Xatırladaq ki, Azərbaycan 1992-ci il sentyabr ayının 25-də Avropa Yenidənqurma və İnkişaf Bankının üzv seçilib.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV, Mirbağır YAQUBZADƏ***
***XQ***

## Fizika İnstitutu – 80

# Milli fizika elminin qərargahı

**Azərbaycan elminin, o cümlədən milli fizika məktəbinin tarixi qədimdir. Hələ IX əsrdən başlayaraq Bəhmənyar əl-Azərbaycani, Qətran Təbrizi, Əbdülhəsən Marağayi, Nizaməddin Naxçıvani, Əbdülkərim Şirvani, Osman Dərbəndli, Nizami Gəncəvi kimi alimlər şərqin qabaqcıl elm və təhsil müəssisələrində çalışır və tanınırdılar. Onların arasında əsərləri bu günə qədər aktuallığını saxlamış, fizika, astronomiya, riyaziyyat və s. sahələrdə yeni elmi istiqamətlər yaratmış görkəmli alimlər yer alıb.**



İbn Sinanın tələbəsi olmuş Bəhmənyar əl Azərbaycani (993-1066) elmi- fəlsəfi fikrin inkişafında böyük rol oynamışdır. Onun 3 fəsildən ibarət "Əl təhsil" əsərində (bir bölmə "Fizika" adlanır) materiya, cisim, hərəkət, istilik, zəlzələ, səs, işıq və s. haqqında müasir fikirlərə uyğun qiymətli nəticələri vardır. XII əsrdə Şirvanda yaşamış Fazil Fəridəddin Şirvani (1057-1146) uzun illər astronomiya elmi ilə məşğul olmuş, bir çox ulduz xəritələri tərtib etmişdir. Dünya elm aləmində tanınan Nizami Gəncəvi, böyük astronom, riyaziyyatçı, fizik və filosof Xacə Nəsirəddin Tusi kimi məşhurlar Azərbaycan xalqının XII-XIII əsrlərdə dünyaya bəxş etdiyi görkəmli simalardır.

Orta əsr elminin universiteti hesab edilən Marağa rəsədxanasının yaradılması, Tusinin "Zis Elxani" əsərində planetlərin orbitinin əsas elementləri, Yerin fırlanma oxunun illik presessiyası, planetlərin sutkalıq hərəkəti və s. haqqında verilmiş məlumatlar XVII əsrdə aparılan astronomiya müşahidələrindən belə dəqiqdir. Tusinin əsərlərində həndəsə, triqonometriya, riyaziyyat, astronomiyaya aid nəzəriyyə və məlumatlar bu sahədə müasir təsəvvurlərə uyğun gəlir və çox vaxt Avropa alimlərinin fikirlərini xeyli qabaqlayır.

Bəhmənyarın "Təhsil kitabı"na ayrıca daxil edilmiş "Fizika" əsərində və Nizami Gəncəvinin "Xəmsə"sində təbiət hadisələrinin elmi izahı o dövrün ideyalarını öyrənmək baxımından çox əhəmiyyətlidir. Nizami Gəncəvinin "İskəndərnamə" əsərində istilik və hərəkətin vəhdəti haqqında fikri olduqca orijinaldır. Sonrakı əsrlərdə də Azərbaycanın görkəmli alimləri yaşamış və elmin müxtəlif sahələrinin yaranması və inkişafı sahəsində xeyli işlər görmüşlər.

XIX əsrdə Azərbaycanda tanınmış mütəfəkkirlər – Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Kazımbəy, Mustafa Topçubaşov, Mir-Mösün Nəvvab elmin müxtəlif sahələrində tanınmış alimlərdir. A.A.Bakıxanovun 1832-ci ildə ərəb dilində yazdığı və 1848-ci ildə İstanbulda "Əfkarül-Cəbarut fi əsrarül-məlakut" adı ilə nəşr olunan əsərində heliosentrik nəzəriyyə, astronomiya, fizika, riyaziyyat, coğrafiya və s. elmlərə aid bir sıra qanunların şərhi verilmişdir.

Müsəlman Şərqində ilk Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşamasına baxmayaraq, həyata keçirdiyi tədbirlər də elm və təhsilin inkişafına böyük yardım göstərmişdi. Ölkədə ilk ali məktəb – 1919-cu il sentyabr ayının 1-də Azərbaycan Dövlət Universiteti yaradıldı. 1920-ci ildə hakimiyyəti ələ alan bolşevik Azərbaycan İnqilab Komitəsi 16 noyabr 1920-ci il tarixdə "Bakıda Politexnik İnstitutun yaradılması haqqında" dekret elan etmişdi. Respublikada müxtəlif sahələr üzrə elmi tədqiqatlar əsasən həmin ali məktəblərdə cəmləşmişdi. O illərdə əsas tədqiqatlar neft və neft məhsullarının öyrənilməsinə həsr olunmuşdu. Eyni zamanda fizika elminin aktual problemlərinə, o cümlədən bərk cisim fizikasının bəzi məsələlərinin tədqiqinə dair araşdırmalar da aparılmışdı.

1923-cü ildə Azərbaycan Tədqiq və Fətəbbə Cəmiyyəti, 1929-cu ildə həmin cəmiyyətin bazasında Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu yaradıldı. Həmin institutun fəaliyyəti nəticəsində artıq 1934-cü ildə respublikada əksəri azərbaycanlı olan 1200-dək elmi işçi çalışırdı. 1927-1932-ci illərdə "Neft təsərrüfatı" jurnalında fizika sahəsində çalışan tədqiqatçıların 37 məqaləsi dərc olundu. Bu məqalələrin əksəriyyəti neftin və neft məhsullarının fiziki xassələrinin tədqiqinə həsr olunmuşdu.

Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun əsasında 1932-ci ildə SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsi yaradıldı və 1935-ci ildə SSRİ EA Azərbaycan filialına çevrildi. Filialda Kimya, Botanika, Zoologiya, Tarix, Etnoqrafiya və Arxeologiya, Dil və Ədəbiyyat institutları, Energetika, Fizika, Geologiya, Torpaqşünaslıq sektorları fəaliyyət göstərirdi.

İlk illərdə Fizika Sektorunda əsasən neftlə bağlı tədqiqatlar aparılırdı. Bu işlərə dağ-mədən süxurlarının fiziki sabitlərinin təyini, neft və neft məhsullarının fiziki xassələrinin tədqiqi, Xəzər dənizi suyunun fiziki xassələrinin öyrənilməsi, habelə cismin mexaniki deformasiyasının elektrik və maqnit xassələrinə təsirinin tədqiqi kimi məsələlər daxil idi.

II Dünya müharibəsindən əvvəl və müharibə dövründə tədqiqatların mövzusu genişlənərək molekulyar fizika, nəzəri fizika, bərk cisim fizikası, o cümlədən yarımkeçiricilər fizikası sahələrini də əhatə etdi.

Qeyd edək ki, 1941-ci ildə respublikada 60 elmi müəssisə var idi. SSRİ EA Azərbaycan Filialında 21 elmlər doktoru, 161 elmlər namizədi çalışırdı. Müharibə illərinin ağırlığına baxmayaraq, artıq 1945-ci ildə 66 elmi-tədqiqat müəssisə və ali təhsil ocaqlarında 150-yədək elmlər doktoru və professor daxil olmaqla 3 minə yaxın elmi işçi, elmi və pedaqoji fəaliyyət göstərirdi.

XX əsrin 40-50-ci illərində fizikaya dair tədqiqatlar A.Abaszadə, Y.Q.Dorfman, Z.Əlizadə, H.İ.Əmirxanov, Z.Kazımzadə, H.A.Muxtarov, A.Z.Vəzirzadə, Y.B.Lopuxin, R.Məlikov, M.Ramazanzadə və s. adları ilə bağlıdır. A.Abaszadə SSRİ Pedaqoji Elmlər Akademiyasının ilk azərbaycanlı müxbir üzvü olmuşdur. Həmin illərdə tədris laboratoriyalarının və kabinetlərinin yaradılmasına, elmi-metodik məsələlərin işlənib hazırlanmasına, fizika terminologiyasının və Azərbaycan dilində dərs vəsaitlərinin tərtibinə xüsusi diqqət verilirdi.

Fizika sahəsində fundamental tədqiqatların aparılmasının vacibliyi nəzərə alınaraq II Dünya müharibəsinin çətinlikləri dövründə - SSRİ EA Azərbaycan filialının Rəyasət Heyətinin 5 aprel 1944-cü il tarixli iclasında, filialın Fizika Sektorunun Fizika İnstitutuna çevrilməsi haqda qərar qəbul edildi.

Bunun ardınca mövcud elmi bazaya söykənərək SSRİ Xalq Komissarları Sovetinin 23 yanvar 1945-ci il tarixli qərarı ilə keçmiş Azərbaycan SSR-nin müstəqil Elmlər Akademiyasının yaradılması ilə respublikada elmi tədqiqatların sürətli inkişafı başladı. 27 mart 1945-ci il tarixli qərar ilə Akademiyanın tərkibində Fizika Sektoru əsasında Fizika İnstitutu və Riyaziyyat sektoru təsis edildi. Bununla da Azərbaycan elminin prioritet tədqiqat istiqamətlərindən biri olan fizika elminin daha sürətli inkişafının əsası qoyuldu.



Fizika Institutuna direktor vəzifəsinə fizika-riyaziyyat elmləri doltoru H.İ.Əmirxanov, elmi işlər üzrə direktor müavini fizika-riyaziyyat elmləri namizədi Z.İ.Əlizadə təyin edildi. Yarandığı ildən institutda əsasən neft sənayesinin inkişafı ilə bağlı işlərin yerinə yetirilməsi planlaşdırılırdı. Həmin vaxt institutda 3 şöbə və 6 laboratoriya fəaliyyət göstərirdi. Buraya neft fizikası, istilik fizikası, rentgenoqrafiya laboratoriyaları daxil idi.

Bu dövrdə Bakıya Rusiyanın görkəmli fizik alimləri dəvət olunurdu. İ.V.Kurçatov, K.D.Sinelnikov, V.P.Juze, Y.B.Lopuxin və b. Leninqrad (hazırki Sankt-Peterburq) Fizika-Texnika İnstitutunun direktoru A.F.İoffe o vaxtlar Azərbaycanda, xüsusilə Bakıda aparılan tədqiqatlarla xüsusi maraqlanırdı.

Yeni yaradılmış Fizika İnstitutunun 1945-1950-ci illər üçün elmi-tədqiqat planı 10 mövzunu əhatə edirdi. Həmin mövzulardan 2-si yarımkeçiricilərin, 2 mövzu neftin tədqiqinə və s. yönəldi.

1947-ci ildə Fizika İnstitutu və Riyaziyyat sektoru birləşdirilərək Fizika-Riyaziyyat İnstitutu yaradıldı. 1949-cu ilin axırlarında professor Z.İ.Xəlilov Fizika-Riyaziyyat İnstitutunun direktoru, 1950-ci ilin yanvar ayında gənc elmlər namizədi H.M.Abdullayev elmi işlər üzrə direktor müavini təyin edildi.

İnstitutun 1951-1955-ci illəri əhatə edən elmi yaradıcılıq dövründə metal və yarımkeçiricilər fizikası (rəhbər H.M.Abdullayev), elektromaqnit rəqsləri (rəhbər H.A.Muxtarov), optik tədqiqatlar (rəhbər F.M.Əfəndiyev), yanmanın fizikası (rəhbər müvəqqəti olaraq H.M.Abdullayev), geofizika laboratoriyaları, rentgen quruluş analizi (rəhbər K.P.Məmmədov), istilik fizikası (rəhbər L.M.İmanov), molekulyar spektroskopiya (rəhbər Ə.X.Xəlilov) qrupları üzrə uyğun elmi istiqamətlərdə tədqiqat işləri planlaşdırıldı və icra edildi.

Həsən Abdullayev 1950-53-cü illərdə Fizika-Texnika İnstitutunda Lenin və SSRİ Dövlət mükafatları laureatı D.N.Nasledovun laboratoriyasında doktorant olarkən həmin institutun tanınmış alimləri ilə təmasda olmuş, bu qabaqcıl elm mərkəzinin geniş imkanlarından istifadə edərək Azərbaycanda fizika elminin inkişafına nail olmuş, tanınmış məktəb yaratmış və bu məktəbin yetişdirmələri sonradan bu elm sahəsində aparıcı qüvvə olaraq akademik adlara layiq görülmüşlər.

Azərbaycanın müasir tarixində fizika elminin inkişafı ölkənin dövlətçilik tarixi, iqtisadiyyat, təhsil və mədəniyyətin inkişafı ilə bağlı olmuşdur. Fizika elminin inkişafı bir neçə tarixi mərhələdən keçmişdir. XX yüzilliyin ikinci onilliyinə qədər Azərbaycanda fizika sahəsində, demək olar ki, tədqiqat işləri aparan elmi müəssisə olmamışdır. Yarandığı 1945-ci ildən indiyədək AMEA və onun hər bir institutu böyük inkişaf yolu keçmişdir. Akademiyanın qabaqcıl institutlarından olan Fizika İnstitutunun fəaliyyəti də məhz elmi-texniki problemlərin həllinə, fundamental tədqiqatların nəticələrinin xalq təsərrüfatının ayrı-ayrı sahələrinə tətbiqinə yönəldilmişdir.

Bu istiqamətlər sənayenin elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma kimi perspektivli sahələrinin intensiv inkişafında həlledici rol oynadı. İnstitutda selen, tellur və onların mürəkkəb birləşmələrinin alınması, fiziki xassələrinin kompleks öyrənilməsi, yeni yarımkeçirici çeviricilərin yaradılması və tətbiqi sahəsində mühüm tədqiqatlar aparılmağa başladı. Optik, maqnit, istilik, rentgenoqrafik, radiospektroskopik, rezonans və s. tədqiqat üsulları daha da inkişaf etdirildi. Ötən əsrin 50-ci illərinin ortalarında institutun bəzi şöbələri müstəqil tədqiqat mərkəzlərinə çevrildi. 60-cı illərin əvvəlində Fizika İnstitutunda yaradılan Kriogen stansiyası respublikanın fiziki eksperimentlə məşğul olan müəssisələrini maye azot və heliumla təmin etdi və fiziki tədqiqatların aşağı temperaturlarda aparılmasına imkan yaratdı.

İnstitutun nəzdində bir sıra elmi istehsalat müəssisələri, o cümlədən "Selen" təcrübə zavodu, "Tellur" və "Reğistr" Xüsusi Konstruktor Büroları (XKB), Radiasiya Tədqiqatları Bölməsi, Bioloji Cihazqayırma XKB, Kosmik Tədqiqat Elm-İstehsalat Birliyinin bölmələri, İnstitutun nailiyyətləri əsasında Bakıda keçmiş SSRİ Müdafiə Sənayesi nazirliyinin təcrübə zavodlu Fotoelektronika İnstitutu yaradıldı. Şəki və Naxçıvanda Azərbaycan SSR EA-nın elmi bazaları və s. təsis edildi. Bir sıra ali məktəblərin müvafiq kafedra və laboratoriyalarında da fizikaya dair qiymətli araşdırmalar aparılırdı.

Azərbaycan fizikləri elmin bütün istiqamətlərində bir çox qabaqcıl elm mərkəzləri [yarımkeçiricilər fizikası sahəsində SSRİ EA-nın A.F.İoffe adına Fizika-Texnika İnstitutu, P.N.Lebedev adına Fizika İnstitutu, Sibir Şöbəsinin Yarımkeçiricilər Fizikası İnstitutu, SSRİ Elektron Sənayesi Nazirliyinin Moskvadakı Molekulyar Elektronika və Materialşünaslıq ET institutları, maqnit hadisələri fizikası sahəsində Ural Elmi Mərkəzinin institutları, elementar zərrəciklər fizikası sahəsində Birləşmiş Nüvə Tədqiqatları İnstitutu, Yüksək Enerjilər Fizikası İnstitutu və M.V.Lomonosov ad. MDU, aşağı temperaturlar fizikası sahəsində Fiziki Problemlər İnstitutu və Xarkov Fizika-Texnika İnstitutu, FNAL (ABŞ), CERN (İsveçrə) elmi mərkəzləri və s.] ilə əməkdaşlıq etmiş, bir sıra elm mərkəzləri ilə əlaqələr indi də davam edir.

1959-cu ildən Fizika İnstitutunda respublikanın fizika sahəsində çalışan alimlərinin iştirakı ilə fizika seminarı fəaliyyət göstərir. 60 ilə yaxın bir müddətdə yüzlərlə tanınmış fizik (bir sıra xarici ölkələrdən dəvət olunan alimlər də daxil olmaqla) Fizika İnstitutunda olmuş, elmi müzakirələr keçirmiş və institutun seminarında məruzə ilə çıxış etmişdir. Bu alimlər sırasında Nobel mükafatı laureatları, fizikanın müxtəlif sahələrində elmi məktəblərə rəhbərlik edən görkəmli akademiklər və b. aparıcı alimlər olmuşlar.

Fizika elmi sahəsindəki nailiyyətlərinə və yüksəkixtisaslı kadrların hazırlanmasına görə Fizika İnstitutu 1969-cu ildə o dövrdə SSRİ-nin yüksək təltifi olan Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. Bu nailiyyətlərin qazanılmasında respublikada yarımkeçiricilərin fizikası sahəsində elmi məktəbin banisi, Fizika İnstitutuna yarandığı gündən ömrünün sonunadək rəhbərlik etmiş SSRİ EA-nın müxbir üzvü, akad. Həsən Abdullayevin əvəzsiz xidmətləri olmuşdur.

Bakıya qayıtdıqdan sonra H.Abdullayev Fizika-Texnika İnstitutu ilə əlaqələrini davam etdirərək özünün kadr hazırlığı siyasətini davam etdirdi. Bu barədə akademik F.Həşimzadə xatırlayır: "Mən 1957-ci ildə ADU-nun nəzəri fizika bölməsini əla qiymətlərlə bitirmişdim, lakin hansı işi görməyi, kimlə necə işləməyi, nədən başlamağı bilmirdim. Həmin il Leninqrad Fizika-Texnika İnstitutundan məşhur alim A.İ.Qubanov Həsən müəllimin dəvəti ilə İnstituta gəlmişdi. O günün səhəri Həsən müəllim məni kabinetinə dəvət etdi və istedadlı, çalışqan bir işçi kimi yanında oturan alimə təqdim etdi və dedi ki, Aleksandr İvanoviç, mən Firudin Həşimzadəni Fizika İnstitutunda yarımkeçiricilər fizikasının nəzəriyyəsi ilə məşğul olan ən yaxşı alim kimi görmək istəyirəm və bu ümidlə də onu Leninqrada sənin yanına göndərirəm.

Uzaqgörən, elmdə yenilik axtaran bu gənc institut direktoru kimi, haraya kiminlə işləməyə yollamağı çox yaxşı bilirdi, heç vaxt da yanılmırdı. Mən həyatım boyu onun mənə təmənnasız köməyini unutmaram. Təxminən, mənimlə eyni vaxtda Leninqradda aspiranturada təhsil alan, sonradan Azərbaycan fizika məktəbinin dünyada tanınmış nümayəndələrinin də yetişməsində Həsən müəllimin əvəzsiz xidmətləri olmuşdur. O, keçmiş ittifaqın görkəmli alimlərindən istifadə edib, Azərbaycanda fizika sahəsində böyük alimlər nəsli yetişdirmiş və 40 ilə yaxın Azərbaycan fiziklərinə başçılıq etmişdir".

1959-cu ildə Fizika və Riyaziyyat İnstitutu əsasında müstəqil Fizika İnstitutu təşkil edildi, həmin ildən ömrünün axırı - 1993-cü ilədək Fizika İnstitutuna SSRİ EA-nın müxbir üzvü, akademik H.M.Abdullayev rəhbərlik etdi.

Akademik H.M.Abdullayevin vəfatından (1 sentyabr 1993-cü il) sonra 1993-2002-ci illərdə İnstituta akademik F.M.Həşimzadə rəhbərlik etmişdir. 2002-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə AMEA H.M.Abdullayev adına Fizika İnstitutunun və akademik E.Y.Salayevin direktor olduğu AMEA Fotoelektronika İnstitutunun bazasında Fizika İnstitutu yaradılmış və AMEA-nın qərarı ilə 2009-cu ilədək akademik A.M.Həşimov İnstitutun direktoru olmuşdur Bundan sonrakı dövrdə akademik Ç.O.Qacar (2009-2012), akademik N.T.Məmmədov (2013-2021) direktor vəzifəsində çalışmışlar. 2021-ci ilin fevral ayından Fizika İnstitutuna yenidən akademik A.M.Həşimov rəhbərlik edir.

Azərbaycanda yarımkeçiricilər fizikası istiqamətindəki tədqiqatların əsas məqsədi yeni mürəkkəb yarımkeçiricilərin alınması, onların fiziki xassələrinin kompleks tədqiqi və nəticədə xüsusi təyinatlı cihazların hazırlanması olmuşdur.

1945-ci ildən Fizika İnstitutunda yarımkeçiricilər fizikası istiqamətində tədqiqat işləri aparılmağa başlanmış, o vaxtkı aspirant Həsən Abdullayevin sonradan Leninqradda SSRİ EA Fizika-Texnika institutunda doktorantura keçərək, orada selen düzləndiricilərində baş verən fiziki proseslərə aid doktorluq dissertasiyası müdafiə edib Bakıya qayıtması ilə onun rəhbərliyi altında Azərbaycanda yarımkeçiricilər fizikası əsas elmi istiqamətə çevrildi və bu istiqamətdə dünya əhəmiyyətli fundamental elmi-tədqiqat işləri aparılmağa başladı.

Akademik H.Abdullayev respublikada fizik kadrları hazırlamaq məqsədilə gənc fizikləri o vaxtlar SSRİ-də fəaliyyət göstərən aparıcı elmi mərkəzlərə göndərirdi. 1960-70-ci illərdə alimin təşəbbüsü ilə 70-dən çox gənc fizik aspirantura və doktorantura təhsili almaq üçün tanınmış elmi mərkəzlərə göndərilmişdi Elmi əlaqələrin yaradılmasında Həsən müəllim Leninqrad Fizika-Texnika İnstitutuna üstünlük verirdi.

Bu işdə Fizika İnstitutunun aparıcı alimlərinin də böyük rolu var idi. Bu sıradan AMEA-nın müxbir üzvü, nəzəri fizika məktəbinin yaradıcısı Y.Seyidovun da adını qeyd etmək lazımdır. Fizika üzrə yüksəkixtisaslı kadrların hazırlanması sahəsində (həm respublikada, həm də ölkəmizdən kənarda) onun böyük xidmətləri olmuşdur.

Akademik Həsən Abdullayevin yorulmaz fəaliyyəti sayəsində yaranmış Azərbaycan yarımkeçiricilər fizikası məktəbi öz uğurları ilə dünyada tanındı və qəbul edildi.

Bu sahədə alınmış fundamental elmi nəticələr respublikamızda bir sıra elmi istiqamətlərin, elektron sənayesi sahələrinin, elmi-tədqiqat institutlarının, kafedraların və s. yaranmasına səbəb oldu. Yeri gəlmişkən qeyd edək ki, selen, tellur və onlar əsasında cihazların tədqiqinə dair işlərin yüksək səviyyəsi nəzərə alınaraq 1957-ci ildən Azərbaycan SSR EA-nın Fizika İnstitutu SSRİ-də "Selen, tellur və onların əsasında cihazların fizikası və texnikası" üzrə baş müəssisə və "Selen əsasında cihazların fizikası və texnikası" istiqaməti üzrə aparıcı təşkilat təsdiq edilmişdir.

H.Abdullayevin bilavasitə rəhbərliyi və iştirakı ilə selendə köçürmə hadisələrinin, müxtəlif qeyri-taraz elektron proseslərinin, həmçinin amorf, kristal, şüşəvari və maye selenin elektrik, fotoelektrik, optik, istilik, mexaniki xassələrinə termik emalın, aşqarların, elektrik sahəsinin, elektromaqnit dalğalarının və ionlaşdırıcı şüaların təsir mexanizmləri tədqiq edilmişdir. Selendə oksigenin halı və konsentrasiyası, onların selenin fiziki xassələrindəki rolu müəyyənləşdirilmişdir. Bu nəticələr selenin xassələrini məqsədyönlü dəyişmə yollarının tapılması və selen cihazlarının parametrlərinin yaxşılaşdırılması istiqamətində təkliflər verməyə imkan yaratmışdır. Selen diodlarında p-n heterokeçidin olduğu müəyyən edilmişdir.

İlk dəfə olaraq selen cihazları üçün həcmi yüklər oblastında ionlaşmış donor və akseptor mərkəzlərinin konsentrasiyasının temperatur artdıqca azalması, elastik deformasiya oblastında tenzorezistiv effektin zəifləməsi, reaktivliyin işarəsinin dəyişməsi, baryer tutumunun tezlik asılılığının mövcudluğu, nəmlik elektrik hərəkət qüvvəsinin yaranması, ~0,7÷1 mkm intervalında elektrolüminessensiya və s. hadisələr müşahidə olunaraq onların mexanizmləri aydınlaşdırılmış, nəticədə yeni, müxtəlif təyinatlı cihazlar hazırlanmışdır. Bu işlərin nəticəsi olaraq keçmiş ittifaqda yüksək effektivliyə malik selen düzləndiricilərinin hazırlanması üzrə xüsusi istehsal sahəsi yaradılmışdır (Yoşka-Ola şəhəri).

Müasir fiziki üsullarla gözün görmə analizatorunun işığa həssaslığının artırılmasında selenin müsbət rolu müəyyənləşdirilmişdir. 1972 ildə "Fotoreseptorların funksional aktivliyinə selenin təsiri" üzrə aparılan tədqiqatlara görə Həsən Abdullayev, Nina Hacıyeva, Hüseyn Həsənov, Haqverdi Cəfərov, Vladimir Perelıgin Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. 1994-cü ildə Fizika İnstitutuna Azərbaycan Respublikası NK-nin qərarı ilə onun əsas yaradıcısı və nailiyyətlərinin müəllifi olmuş akademik Həsən Abdullayevin adı verilmişdir.

Yarımkeçiricilərdə köçürmə hadisələrinin tədqiqinə həsr olunmuş işlər akademik Maqsud Əliyevin rəhbərliyi ilə yaranmış elmi məktəbin nümayəndələri tərəfindən onun bilavasitə iştirakı ilə germanium, silisium, A3B5 tipli birləşmələr, onlar əsasında bərk məhlullar, evtektikalar, darzolaqlı və mürəkkəb yarımkeçiricilərdə köçürmə hadisələrinə aid kompleks tədqiqatlar aparılmış, onlarda istilikkeçirmə, elektronların enerji spektri, elektron və fononların səpilmə mexanizmləri öyrənilmişdir.

İndium və qallium antimonidləri əsasında süni anizotrop yarımkeçiricilər – evtektikalar alınaraq, onlarda kinetik effektlərin qanunauyğunluqları və xüsusiyyətləri müəyyənləşdirilmiş, həmin evtektikalar əsasında yarımkeçirici-ifratkeçirici-yarımkeçirici quruluşda Cozefson effekti müşahidə olunmuşdur. M.Əliyev elmi nailiyyətlərinə və yüksəkixtisaslı kadrlar hazırlanmasında xidmətlərinə görə akad. Yusif Məmmədəliyev adına mükafata layiq görülmüşdür.

60-cı illərdə Azərbaycanda fizikaya dair tədqiqatların bərk cisimlər fizikası, əsasən, bərk cisimlər nəzəriyyəsi və yarımkeçiricilər fizikası, molekulyar fizika və spektroskopiya, elementar zərrəciklər və atom nüvəsi fizikası kimi əsas istiqamətləri müəyyənləşdi. AMEA-nın müxbir üzvü Yühənnəs Seyidovun rəhbərliyi altında bəzi ferritlərin əsas halları geniş təhlil edilmiş, maqnit-səth hadisələrinin nəzəriyyəsi, spin-plazmon əlaqəli sistemin spin-plazmon tezlikli elementar oyanmalarında elektromaqnit sahəsini xarakterizə edən kəmiyyətlərin fluktuasiyaları, neytronların və işığın bu fluktuasiyalardan səpilməsi, kənar yüklü zərrəciklər dəstəsinin və maddə daxilindəki elektronların yaratdığı cərəyanlar vasitəsilə spin dalğalarının oyanması kimi hadisələr nəzəri olaraq öyrənilmişdir.

(ardı var)

*Arif HƏŞİMOV,*
*AMEA-nın həqiqi üzvü,*
*Səlimə MEHDİYEVA,*
*AMEA-nın müxbir üzvü*

# Qəbələ Beynəlxalq Musiqi Festivalı

## *Dahi Üzeyir bəyin xatirəsinə ehtiram*

**Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə keçirilən 14-cü musiqi bayramı ətraf dağlarda əks-səda verməkdədir.**



Məlum olduğu kimi, Qəbələ festivalı bu dəfə Azərbaycan musiqisinin tacı – dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr edilib. Rəsmi hissədə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Heydər Əliyev Fondunun icraçı direktoru



Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli və digər rəsmi çəxslər, tanınmış ictimai xadimlər, Qəbələ sakinləri və qonaqlar iştirak ediblər.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, festivalın bədii rəhbəri Fərhad Bədəlbəyli çıxışında bu ənənəvi bayramın mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu bildirib. Qeyd edilib ki, festival bu dəfə də dünya musiqisinin müxtəlif simalarını bir məkanda toplayaraq, beynəlxalq mədəni dialoqun önəmli ünvanına çevrilib. Bu sənət bayramı təkcə klassik əsərlərin təntənəsi deyil, eyni zamanda, xalqları birləşdirən, sərhədləri aşan mənəvi dəyərlərin təcəssümüdür.

Həmin axşam Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş xüsusi konsert proqramı ilə yadda qalıb. Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və Fikrət Əmirov adına Əməkdar Kollektiv, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının Xor qrupu, tanınmış ifaçılar tamaşaçılara maraqlı ifalar təqdim ediblər. Üzeyir bəyin "Cəngi" əsəri ilə başlanan konsertdə Səid Rüstəmov, Vasif Adıgözəlov, Hacı Xanməmmədov, Ramiz Mirişli, Polad Bülbüloğlu, Emin Sabitoğlu, Süleyman Ələsgərov, Fikrət Əmirov, Fərhad Bədəlbəyli, Müslüm Maqomayev və digər bəstəkarların əsərlərini, eləcə də xalq mahnıları səsləndirilib.

Jurnalistlərə müsahibəsində Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva deyib:

– Milli musiqimiz, mədəniyyətimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyliyə borcludur. Odur ki, bu böyük dühanın adına layiq festival keçirmək əzmindəyik. Bir qədər həyəcanlıyıq, amma əminik ki, belə də olacaq. Ümumiyyətlə, Qəbələ festivalının ilk buraxılışından belə bir gözəl ənənəsi var ki, həmin ilə təsadüf edən bütün ildönümləri, yubileyləri mütləq qeyd edək. Prezident İlham Əliyevin bu il dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illiyinin dövlət səviyyəsində qeyd edilməsi ilə bağlı imzaladığı sərəncam bizə böyük ilham verdi ki, həmin yubileyi, eləcə də Rauf Atakişiyevin 100 və Vasif Adıgözəlovun 90 illik yubileylərini bu festivalda onların adına layiq şəkildə keçirək.

Festival çərçivəsində "Mercadonegro" musiqi qrupunun çıxışı hər kəsə unudulmaz təsir bağışlayıb. Latın Amerikası ruhunda konsertdə əsasən Kuba musiqisindən yaranan salsa ritmləri ilə musiqi axşamına özünəməxsus enerji dolu ovqat qatıb.

Musiqisevərlər həmçinin Tbilisi Big Band ansamblının (Gürcüstan), "Ciurlionis" kvartetinin (Litva), həmçinin "Gənclərə dəstək" layihəsi iştirakçılarının, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin, "Detaşe-Sabah" violinoçular ansamblının, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin, Bakı Dövlət Kamera Orkestrinin, tanınmış musiqiçilərin çıxışlarını izləyə biləcəklər.

Artıq gözəl ənənəyə çevrilən və sentyabr ayında keçiriləcək möhtəşəm Üzeyir Musiqi Günü ərəfəsində əsl yubiley proloqu olan festival daha bir neçə gün davam edəcək.

***XQ***

# "Kəlam"ın kəlamları

**Elmi-ədəbi publisistik jurnal olan "Kəlam"ın 2025-ci il iyul-avqust aylarına dair növbəti sayı işıq üzü görüb.**

Bu jurnalı 2002-ci ilin avqust ayında mərhum ilahiyyatçı alim Qazı Hacı Mirəziz Seyidzadə təsis edib. Şəxsən tanıdığım Mirəziz Seyidzadə Sverdlovsk Xalq Təsərrüfatı İnstitutunu və Bakı İslam Universitetini bitirmiş, Dillər Universitetinin nəzdindəki 2 illik xarici dillər kursunun "Ərəb dili" şöbəsini əla qiymətlə başa vurmuşdu. "İslamda həccin tarixi-mədəni və sosial-siyasi rolu" adlı namizədlik dissertasiyasını uğurla müdafiə edərək, "İlahiyyat üzrə fəlsəfə doktoru" alimlik dərəcəsi almışdı. Azərbaycan Jurnalistlər və Yazıçılar birliklərinin üzvü, "Qızıl qələm" mükafatı laureatı idi.



Onunla görüşlərimiz ədəbiyyat haqqında söhbətlərsiz ötüşməzdi. Astara və Masallı rayonlarının "Cümə" məscidlərində axund olmuş, Bakı İslam Universitetində baş müəllim kimi çalışmışdı. 1994-2011-ci illərdə Qafqaz Müsəlmanları İdarəsinin




(QMİ) təhsil şöbəsinin müdiri və İslam Universiteti Sumqayıt şöbəsinin rektoru vəzifələrini icra edən, sonra QMİ-də Fətva şöbəsinin müdiri olan Mirəziz müəllimin "İmam Əlinin qısa kəlamları", "İslami söhbətlər" (iki hissədən ibarət, həm də rus dilində), "Allahımı belə tanıdım", "Bulud ağlamasa", "Elmin qapısı" (həm də ingiliscə), "Divan", "İslam olduğu kimi" və "Yaradan axtarışında" kitablarını üləmaların, dini-bədii ədəbiyyat həvəskarlarının maraqla oxuyub yeni mənalar əxz etdikləri nümunələr idi. Ədəbi camedə "Əziz Pünhan" təxəllüsü ilə çıxış edirdi.

Dövlət televiziyasında işlədiyim vaxtlarda Ümummilli liderlə Həcc ziyarətinə gedən heyətin tərkibində o da vardı. Bu barədə hazırladığımız verilişə baxaraq bəyənmiş və həmin lentin bir nüsxəsini məndən istəmişdi. Buna icazə yox idi. Amma mən Hacı Mirəzizə olan hörmətə görə rəhbərlikdən xahiş elədim və verilişin kasetə köçürülüb ona verilməsinə nail oldum. Prezidentlə birlikdə çəkildiyi ziyarət kadrlarını əldə etməsinə çox sevindi.

Əziz Pünhanın şeirlərində Vətən sevgisi ön planda idi. Azərbaycanın dahi oğullarıyla fəxr edirdi. Ulu öndər Heydər Əliyevi şeirlərində dönə-dönə vəsf etmişdi:

**Vətəndə bir zirvə var, əbədi adı Heydər,**
**Odur bu xalqa sərdar, əvəzsiz ulu öndər.**

**Bir günü yüz il oldu, ömrü əsri yaşatdı,**
**Bölünmüş parçalardan Azərbaycan yaratdı.**

Respublika Ağsaqqallar Şurasının üzvü olan Hacı Mirəziz Seyidzadənin üzündəki İslami nur onun həmsöhbətlərinin qəlbinə nüfuz edir, irfani mülahizələri ilə hər kəsi ovsunlayırdı. Filologiya elmləri doktoru, Əməkdar mədəniyyət işçisi Vaqif Yusifli onunla bağlı xatirələrində yazır ki, o, Azərbaycanda mötəbər din xadimlərindən biri idi. Axirətə əbədi səfərindən 3 gün öncə son görüşlərində yeni şeirlər kitabını çap hazırlığından danışdıq. Gedəndə "Allah qoysa, görüşərik!", – dedi. Amma bir daha görüşə bilmədik. Hacı Mirəziz bəlkə də Tanrının bizim aramıza xoş niyyətlə göndərilən, bizləri dinə, imana, haqqa səsləyən elçilərindən biri idi.

Mirəziz Seyidzadə – Əziz Pünhan poeziyada klassik şeir ənənələrini yaşadan şairlərdən idi. Onun 472 səhifəlik "Divan"ında qəzəllər, rübailər, qitələr, mürəbbelər, müxəmməslər, müsəddəslər, müsəbbelər, müəşşərlər, tərcibənd və tərkibbəndlər, müsəzadlar, həmçinin qoşmalar, hecada yazdığı müxtəlif şeirlər toplanıb. Deyirdi ki, gənclik çağından əsasən qəzəl janrına müraciət etməyinin səbəbi böyük Məhəmməd Füzuliyə olan sevgisindən, ehtiramından irəli gəlirdi. Təvazökarcasına adını gizli saxlamaq üçün "Pünhan" təxəllüsünü götürmüşdü. Xeyli sonralar, necə deyərlər, üzə çıxmağa ürək eləyib və "Əziz Pünhan" olub. Tezliklə yazarlar mühitinin də sevimlisinə çevrilib. 65 yaşı qeyd olunanda – AYB-nin "Natəvan" klubunda kitablarının təqdimat mərasimində Xalq şairi Fikrət Qoca onun haqqında deyib ki, Mirəziz bizim müasir poeziyamızın qəzəl şamını yandıranlardan biridir. Ərəb və fars dillərini mükəmməl bildiyindən, Quranın hər sətrinə vaqif olduğundan (Səmərqənddə ali ruhani təhsili almışdı) klassik ədəbiyyatı incəliklərinə qədər anlayır, sevir və təbliğ edir.

**Naz ilə alıb dövrəmi üşşaqi-təranə**
**Bir yanda dəfi-dairə, bir yan rübab oldu.**

**Tel-tel dolanıb xanələri "Bəstənigar"ın,**
**"Dilkəş" ilə "Mahur"u bir özgə səvab oldu.**

Onun qəzəllərində belə dünyəvi ruh hakimdir. Din xadimi Hacı Mirəziz burada dünyaya bəsirət gözü ilə baxan, həyatın gözəlliklərindən zövq alan, sevgiyə müqəddəs duyğu kimi nəzər salan bir Aşiq kimi görünür.

Mərhum akademik Hacı Vasim Məmmədəliyevin onun haqqında dedikləri: "Hacı Mirəziz Seyidzadə təfsir, fiqh, hədis sahəsində geniş biliyə malik olan, üsul ilə furunu – yəni nəzəriyyə ilə əməliyyəni bir-biri ilə yaxşı əlaqələndirməyi bacaran, onları yerində tətbiq edə bilən bacarıqlı din xadimidir. Onun baş redaktoru olduğu "Kəlam" elmi-ədəbi, ictimai publisistik jurnalı Azərbaycanda nəşr olunan ən nüfuzlu dərgilərdən biridir. Mən özüm bu dərgini çox böyük maraqla mütaliə edir, ondan faydalanıram".

Yeri gəlmişkən, görkəmli elm-irfan adamları ilə yaxın dost idi. Akademiklər Teymur Bünyadov, Bəkir Nəbiyev, Budaq Budaqov, Bahadur Tağıyev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə bu sırada idilər. O vəfat edəndə Şeyxülislam demişdi: "Mən generalımı, sərkərdəmi itirdim"...

Budur, vaxtilə Hacı Mirəzizin yaratdığı "Kəlam" jurnalının onsuz buraxılan növbəti sayı qarşımızdadır. Dərgini şairin oğlu Hacı Səid Seyidzadə yaşadır. Jurnalda Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü, Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılışı, İslam aləminin yenilikləri, ziyarət təəssüratları ilə bərabər, ədəbi-bədii mövzularda yazılar da yer alıb. Buraya ilahiyyatçı dostum Samid Quliyevin mərsiyə ədəbiyyatı haqqında "Davam edən ixtirab, yaşayan söz" məqaləsi, Hacı Mehman Fərzullayevin mərhum tərcüməçi-filoloq Zeydulla Ağayev haqqında "Xeyirxahlıq mücəssəməsi", yazıçı-publisist Nurəddin Ədiloğlunun İsmayıl Şıxlı ilə Çingiz Aytmatovun dostluğundan bəhs edən "Ruh və düşüncə doğmalığı" adlı esseləri, Nurəddin Mənsurun, Xanım Eynullaqızının şeirləri və digər nümunələr daxil edilib.

...Beləcə, həmkarım Tahir Aydınoğlunun tanışlıq üçün mənə verdiyi "Kəlam"ın növbəti sayını vərəqlədikcə xəyal məni jurnalın təsisçisi, ilk baş redaktoru Hacı Mirəziz Seyidzadə ilə bağlı xatirələr aləminə çəkib apardı.

***Əli NƏCƏFXANLI***
***XQ***

# "Zəngəzur yazarlarının Zəfər çələngi"

**"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Zəngəzur yazarlarının Zəfər çələngi" layihəsi çərçivəsində buraxdığı eyniadlı kitabda tarixi Zəngəzur bölgəsini əhatə edən 9 rayonda – Cəbrayıl, Qarakilsə, Mehri, Gorus, Kəlbəcər, Laçın, Qafan, Zəngilan və Qubadlıda doğulan, soy-kökü ilə bu bölgəyə bağlı olan 250 müəllifin müxtəlif janrlı bədii və publisistik yazıları toplanıb.**

Fərqli üslub və rəngarəng mövzulu müxtəlif janrlı yazılarda müəlliflərin Vətən, torpaq, dövlət, xalq, ulu öndər Heydər Əliyev, Ali Baş Komandan İlham Əliyev, Milli Ordu, şəhid, qazi, ata-ana, Zəngəzur, Azərbaycan – Türkiyə birliyi, xalqımızın Vətən müharibəsindən sonrakı qürurlu həyatı, duyğuları ifadə olunub.




Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsi və 23 saat davam edən anti-terror əməliyyatı zamanı etdiyi tarixi çıxışlarından sətirlər, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın feysbuk paylaşımları, xalqımızın Zəfər yoluna ayna tutan çoxsaylı fotolar da toplunun vətənpərvərlik ruhuna əyanilik gətirir və nəşrin mənəvi dəyərini, bədii siqlətini yüksəldir.

Toplu professor Mönsüm Alışovun "Zəfər ovqatlı Ön söz"ü ilə açılır. Qeyd olunur ki, kitabda adı, sözü keçən yazarların bəziləri xalqımızın Zəfər günlərini görmədən yurd həsrətilə dünyadan köçüblər. Onların Vətən sevgisi ilə aşılanmış yazıları da nəşrə salınıb. 8 Noyabr Zəfərinin tarixi önəmini dərindən anlamaq, yaşadığımız faciələrdən dərs almaq üçün bu yazılar həqiqət qaynağıdır.

Yaşadığımız şərəfli günlərin, ümumxalq təntənəsinin bədii inikası olan topludakı ədəbi örnəklərin xeyli hissəsini redaksiya heyətinin üzvləri, tərtibçilər son 5 ilin çap, media və internet bazalarından toplayıblar.

Almanaxın nüsxələri şəhid ailələrinə, qazilərə, təqdimatda iştirak edənlərə, elm, təhsil, mədəniyyət müəssisələrinə, ictimai təşkilatlara, dövlət, qeyri – hökumət təşkilatlarına, KİV-lərə, hərbi hissələrə, müəlliflərə paylanıb.

***XQ***

# Xəzər sahilində şən təranələr



**Gözəl sahil məkanı olan, dünyada tanınan mədəniyyət xadimlərinin adına ulduzlar açılan Bakıdakı "Sea Breeze" istirahət mərkəzində möhtəşəm "Dream FEST 2025" beynəlxalq musiqi festivalı davam edir.**

Bir neçə gün əvvəl buradakı "Walk of Fame" Şöhrət xiyabanında mərhum teleaparıcı, Milli Məclisin deputatı, müasir Azərbaycan mədəniyyətinin parlaq simalarından biri Anar Məmmədxanovun, dünən isə In-Grid kimi tanınan italyan müğənni və bəstəkarı İnqrid Alberinin adına olan ulduzun açılışı olub.

Açılış konsertindən əvvəl xarici ulduzlar və azərbaycanlı ifaçılar qırmızı xalça üzərindən keçiblər. Sonra musiqi bayramı başlayıb. Səhnəyə ilk olaraq Xalq artisti Emin Ağalarov çıxaraq, tamaşaçılara coşğun, inanılmaz enerji bəxş edən nəğmələr oxuyub.

Azərbaycanın xalq artistləri Zülfiyyə Xanbabayeva, Faiq Ağayev və Tünzalə Ağayevanın səsləri tədbirə xüsusi rəng qatıb. Musiqi gecəsində çıxış edən sənətçilər arasında Alessandro Safina, Emin Ağalarov, Anar Ağayev, Roza Zərgərli, Merab Amzoevi, Brendon Stoun, "Blue" qrupu, Tünzalə Ağayeva, Nigar Camal, Nəsibə Abdullayeva, Elçin Əzizov, Nani Breqvadze, Fərrux Zakirov və digər tanınmış ifaçılar yer alıblar. "Sea Breeze" tarixində ilk dəfə olaraq tamaşaçılara 500 drondan istifadə edilməklə şou təqdim edilib. Gecə möhtəşəm atəşfəşanlıqla başa çatıb.

Ertəsi gün axşam proqramlar görkəmli Azərbaycan opera və estrada müğənnisi, SSRİ Xalq artisti Müslüm Maqomayevin yaradıcılığına həsr olunub. Onun möhür vurduğu məşhur əsərləri həm solo, həm də duet formatında səsləndirilib. Konsert çərçivəsində Müslüm Maqomayevin həyat və yaradıcılığına həsr olunmuş videoçarx da nümayiş etdirilib. Gecənin kulminasiya anlarından biri Emin Ağalarov, Alessandro Safina və Elçin Əzizovun birlikdə ifa etdikləri "Mavi əbədilik" mahnısı olub. Onların yüksək peşəkarlıq və dərin emosiyalarla zəngin çıxışı dəniz üzərində atəşfəşanlıqla müşayiət olunaraq unudulmaz ab-hava yaradıb.

Bu gün isə ötən əsrin son onilliklərinin disko-musiqisinin pərəstişkarları üçün xüsusi proqram təqdim ediləcək. Nostalji ab-hava yaradan retro musiqilər qanad açacaq. Qeyd edək ki, "Dream FEST" iyulun 26-dək davam edəcək və bu müddət ərzində tamaşaçılar Böyük Britaniya və Türkiyə, Kanada da daxil olmaqla, 100-dən çox musiqiçinin çıxışını maraqla izləyə biləcəklər.

***XQ***

# Bakıda Doğu Akdeniz Universitetinin ofisi açıldı



**Dünən Hədəf Şirkətlər Qrupunun baş idarəsində Kuzey Kıbrıs Türk Cümhuriyyətinin aparıcı ali məktəblərindən olan Doğu Akdeniz Universitetinin Bakı tanıtım ofisinin açılışı keçirildi. Tədbirdə KKTC-nin təhsil naziri Nazım Çavuşoğlu, millət vəkili, Azərbaycan–KKTC Parlamentlərarası Dostluq Qrupunun sədri Cavanşir Feyziyev, universitet və təhsil təşkilatlarının rəhbərləri iştirak etdilər.**

Açılışın məqsədi azərbaycanlı gənclər üçün təhsil imkanlarını genişləndirmək, ortaq türk dəyərləri üzərində qurulmuş strateji əməkdaşlığı möhkəmləndirmək və Türk dünyası arasında elmi-mədəni körpü yaratmaqdan ibarətdir. Çıxışlarda bu ofisin gələcək nəsillərin maarifləndirilməsi baxımından əhəmiyyətinə xüsusi vurğu edildi.

***XQ***

*BEYNƏLXALQ HƏYAT*

# Çinin lazer texnologiyası kosmosda yeni cəbhə açır

**Çinin Hefeydə yerləşən Fizika Elmləri üzrə Elmi-Tədqiqat İnstitutu beynəlxalq hərbi və texnoloji dairələrdə rezonans doğuracaq yeni nailiyyətə imza atıb. İnstitutun alimləri barium-selenoqallat (BGSe) adlı birləşmədən istifadə etməklə, diametri 60 millimetr olan dünyanın ən iri kristal nümunəsini hazırlayıblar. Cənubi Çin səhifəsində dərc olunan məlumata görə, bu kristal güclü lazer şüalanmasına (bir kvadrat santimetrə 550 meqavatt) davam gətirə bilir ki, bu da onu lazer silahlarının hazırlanmasında inqilabi materiala çevirir.**



Əldə edilən nəticə Çinin orbitdə yerləşən peyklərə qarşı yönləndirilmiş enerji silahları, xüsusilə yüksək güclü lazer sistemlərini yaratmaq potensialını ciddi şəkildə artırır. Hərbi məqsədli digər kristallar bu səviyyədə güc yüklənməsinə tab gətirə bilmədiyindən, BGSe-nin stabil yüksək nailiyyət göstəriciləri yeni nəsil silahların inkişafına təkan verə bilər.

Məlumatda qeyd olunur ki, bu nailiyyətə professor U Xaysinin rəhbərliyi ilə çalışan alimlər qrupu imza atıb. Onların fikrincə, BGSe kristalları yalnız lazer silahlarında deyil, həm də raketlərin izlənməsi, təyyarələrin identifikasiyası və hətta tibbi diaqnostik sistemlərdə istifadə edilə bilər. Bu, texnologiyanın həm hərbi, həm də mülki tətbiq sahələri üçün geniş imkanlar vəd etdiyini göstərir.

Bu elmi yenilik yalnız texnoloji deyil, həm də geosiyasi baxımdan xüsusi əhəmiyyət daşıyır. Son illərdə ABŞ, Rusiya və Çin arasında kosmosda hərbiləşdirmə və silahlanma yarışının intensivləşdiyi müşahidə olunur. ABŞ-ın Kosmik Qüvvələr Komandanlığı (U.S. Space Force) və Rusiyanın kosmosda mülki obyektləri hədəfə ala biləcək antisatellit imkanları yaratmağa yönəlmiş səyləri artıq qlobal narahatlıq doğurub. Çinin bu sahədə qazandığı üstünlük isə qarşıdurma dinamikasını daha da mürəkkəbləşdirir.

Xüsusilə, orbitdəki rabitə və müşahidə peykləri, strateji informasiya axınında mühüm rol oynayır. Ekspertlərin sözlərinə görə, bu peyklərin lazerlərlə hədəfə alınması, müharibə və kəşfiyyat strategiyalarının kökündən dəyişməsinə gətirib çıxara bilər. Qərb mətbuatı da qeyd edir ki, ABŞ və NATO-nun müdafiə planlaşdırılmalarında bu tip texnologiyalara qarşı qoruyucu sistemlərin yaradılması artıq prioritet halını alıb.

Avropa İttifaqı kosmosun hərbiləşdirilməsinə qarşı çıxış etsə də, bu sahədə ümumdünya hüquqi çərçivə faktiki olaraq mövcud deyil. 1967-ci il Kosmos Sazişi (Outer Space Treaty) ölkələri kosmosda kütləvi qırğın silahları yerləşdirməkdən çəkindirsə də, kosmosa yönləndirilmiş enerji silahları və ya antisatellit sistemləri bu hüquqi çərçivəyə daxil deyil. Qeyd etmək yerinə düşər ki, antisatellit sistemləri (ASAT - Anti-Satellite weapons) potensial düşmənə məxsus peykləri məhv etmək, sıradan çıxarmaq və ya onların funksionallığını pozmaq məqsədilə hazırlanmış hərbi texnologiyalardır. Bu sistemlər kosmosda və ya Yer üzündən orbitdəki obyektləri hədəfə almaq imkanına malikdir.

Belə bir vəziyyətdə, mütəxəssislərin fikrincə, Çinin BGSe kristalı əsasında hazırlaya biləcəyi lazer texnologiyaları, beynəlxalq ictimaiyyəti bu sahədə yeni hüquqi mexanizmlər yaratmağa vadar edə bilər. Eyni zamanda, bu inkişaflar silahlanma nəzarəti və strateji sabitlik müstəvisində yeni müzakirələrin başlanmasına gətirib çıxaracağı istisna edilmir.

Siyasi müşahidəçilər düşünürlər ki, Çinin təqdim etdiyi bu texnoloji yenilik yalnız elm və sənaye uğuru deyil, həm də geosiyasi balansları dəyişə biləcək bir hadisədir. Çünki kosmos artıq, sadəcə, tədqiqat və rabitə sahəsi deyil, həm də rəqabətin, qarşıdurmanın və strateji güc nümayişinin yeni məkanına çevrilir.

Xatırladaq ki, "soyuq müharibə" dövründə (1947–1991) ABŞ və SSRİ arasında hərbi, texnoloji və ideoloji rəqabət yalnız yer üzündə deyil, kosmosda da qızğın şəkildə davam etmişdi. Bu rəqabətin əsas istiqamətlərindən biri kosmik silahlanma idi. O dövrdə ABŞ prezidenti Ronald Reyqanın təşəbbüsü ilə "Ulduz müharibələri" kimi tanınan Strateji Müdafiə Təşəbbüsü (SDI) irəli sürülmüşdü. Bu proqram kosmosda raketdən müdafiə sistemləri, lazer və kinetik silahlar üzərində cəmləşmişdi.

Beləliklə, ABŞ, Rusiya və Çin arasındakı bu yarış təkcə texnologiya sahəsində deyil, həm də beynəlxalq təhlükəsizlik və normativ tənzimləmə sahəsində də yeni çağırışlar doğurur. Buna görə də, lazer texnologiyası fonunda başlayan bu mərhələnin XXI əsrin "kosmosda soyuq müharibə"si kimi tarixə düşmək şansı getdikcə artır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*REPLİKA*

# "Kəpəz" sınaq laboratoriyası deyil!

## *Klub yeni mövsüm ərəfəsində ağır durumdadır*

**İki ay qabaq nəinki öz ənənəsi olan "Kəpəz" azarkeşləri, qədim şəhərin futbol ictimaiyyəti, az qala bütün şəhər, nəhayət, dərindən nəfəs aldı, "sponsor tapıldı" deyərək Gəncə sevincli günlərini yaşadı.**



Şəhər, rayon var ki, orada öz klubunu yalnız müəyyən dairələr, futbol fanatları izləyir və ona azarkeşlik edir. Gəncədə isə elə deyil. Burada maraq üçün əhali arasında bir sorğu aparsaq, inanın ki, 10 nəfərdən ən azı 8 nəfər sənə "Kəpəz"in dünəni, bugünü haqqında məlumat verəcək, onun 3 dəfə qızıl medal aldığını deyəcək, 4 dəfə Azərbaycan kubokunu Gəncəyə gətirdiyini bildirəcək. Söyləyəcək ki, ölkə klubları arasında "Kəpəz"in rekordunu sonralar təzələyən yeganə komanda "Qarabağ" olub.

Lakin "Kəpəz"in şan-şöhrəti 80-ci illərin sonlarında qaldı. Klub getdikcə geriləməyə başladı, hətta birinci liqaya düşdü, ağır günlər yaşadı. Yüksək liqaya qayıtdıqdan sonra da vəziyyət düzəlmədi. Rəhbərliyin biri gəldi, biri getdi, ildə bir dəfə baş məşqçi dəyişdi. Vəziyyət isə düzəlmədi ki, düzəlmədi. Çünki federasiya tərəfindən ayrılan məbləğ klubun ancaq müəyyən tələblərini ödəyə bilirdi. Sponsorsuz öz məqsədinə çatmaq isə çətin idi.

Əslində, "Kəpəz"dən başqa demək olar bütün klubların sponsoru var idi və bu, istər-istəməz özünü göstərirdi. Bir tərəfdən də stadionun yararsız hala düşməsi, komandanın gah Qəbələdə, gah Tovuzda, Bakıda, özgə meydanlarında azarkeşsiz oynaması çətinlik yaradırdı və son illər klub bir güc-bəla ilə premyer liqada qala bilmişdi. İnsafla desək, bir-birini əvəz edən baş məşqçilərin – Tərlan Əhmədovun, Adil Şükürovun, Azər Bağırovun sayəsində və təbii ki, klubun idarə heyətinin sədri İlqar Nadirin köməyi nəticəsində "Kəpəz" hər dəfə sonuncu yerlərdən hər halda güc-bəla ilə xilas ola bilirdi və yüksək liqada qalırdı.

Lakin yazının əvvəlindəki fikrə qayıdaraq qeyd edək ki, bu ilin may ayında hamının çoxdan və həsrətlə gözlədiyi sponsor – Namiq Qədirov gəlib çıxdı. Öz ayağı ilə gəldi, ya onu dəvət etdilər, deyə bilmərik, hər halda gəldi. Dedilər tanınmış iş adamıdır, əslən Gəncədəndir və sair. Lap yaxşı. Hiss olunurdu ki, ciddi adamdır, sözünün üstündə durandır, məqsədi Gəncə klubunun əvvəlki şöhrətini geri qaytarmaqdır. Təbii ki, onu kluba dəvət edən adamlar var idi və onların da klubun yeni idarə heyətinə salınması gözlənilən idi. Beləliklə, Namiq Qədirov klubun ictimai birliyi idarə heyətinin sədri, Adil Vəliyev, Afiq Süleymanov, Fərman Əlizadə, Erkin İbrahimov isə idarə heyətinin üzvləri seçildilər. Fərman Əlizadə idarəçilik üzrə, Erkin İbrahimov isə idman məsələləri üzrə müşavir təyin olundu. Sonuncu ölkədə tanınmış futbol meneceri olub və indinin özündə də bu işlə məşğuldur.

Aydındır ki, yeni gələn rəhbər klubun maliyyə-təsərrüfat vəziyyətini yoxlamadan onu təhvil götürə bilməzdi. Aparılan audit də göstərdi ki, İlqar Nadirinin rəhbərlik etdiyi dövrdə heç bir pozuntiya yol verilməyib. Yeri gəlmişkən, qeyd etmək istəyirəm ki, son bir neçə ildə "Kəpəz"in, necə deyərlər, ayaq üstə dayanmasının əsas səbəbkarı, elə İlqar Nadirinin özüdür. Nə qədər təxribatlara çəkilsə də, hücumlara məruz qalsa da, sübut etdi ki, "Kəpəz" onun üçün hər şeydən üstündür.

...Amma günlərin bir günü xəbər çıxdı ki, yeni sponsor, idarə heyətinin sədri Namiq Qədirov klubla vidalaşmaq istəyir. Səbəb də budur ki, ondan əsas kluba maliyyə yardımı etməkdən əlavə digər məsələlərə, o cümlədən uşaq futbolunun inkişafı üçün da vəsait ayırmağı tələb edirlər. Narazılıq da elə bundan sonra başladı. Namiq Qədirov əvvəlcə klubu dirçəltmək, komandanın ehtiyaclarını ödəməyin vacib olduğunu, daha sonra qaldırılan məsələlərlə məşğul olunacağını bildirsə də idarə heyəti üzvləri arasında razılıq əldə olunmadı və yeni sponsor heç işə başlamamış bu vəzifəsindən istefa verərək vidalaşdı...

Bir qədər sonra idarə heyəti sədrinin idman məsələləri üzrə müşaviri Erkin İbrahimov da klubda qala bilməyəcəyini bildirdi. Yeni idarə heyəti üzvlərindən yalnız Adil Vəliyev və idarəçilik üzrə müşavir Fərman Əlizadə qaldı. Məlumat üçün deyək ki, Adil Vəliyev tanınmış simadır, əslən Gəncədəndir. Ciddiliyi ilə yadda qalır və ən başlıcası Gəncə klubuna xüsusi rəğbəti var. Əgər yeni heyət təsdiq olunarsa və Adil Vəliyev bu postu tutmağa razılıq verərsə, təəccüblənmək yox, sevinmək lazımdır...

Nə isə, bu gün-sabah növbəti çempionat başlanır, amma ağır olan odur ki, klub bilmir rəhbəri kimdir, gətirilən oyunçuların taleyi necə olacaq, başqa məsələlər yenə göydən asılımı qalacaq?

Dünən "Kəpəz"in uzaqdan da olsa, 5-10 dəqiqə məşqini izlədim. Köhnə oyunçuların çoxu, yəni 11 nəfər klubdan ayrılıb. Adil Şükürova nə qədər böyük hörmətim olsa da, Azər Bağırovla yenidən müqavilə bağlanmamasına təəccübləndim və bu addımı heç cür başa düşmədim. Çox mübariz əhval-ruhiyyəli bir komanda yaratmışdı. İndi təzə gələn futbolçular kimdir, nəçidir, nəyə qadirdilər, bilmək də olmur.

Üzərinə "Kəpəz" yazılmış, "buna da min şükür" deyilən nimdaş görkəmli avtobusun yanından keçdim və nədənsə qanım qaraldı. Fikirləşdim ki, bu nə oyundur tez-tez "Kəpəz"in başına gəlir? "Kəpəz" eksperiment, sınaq laboratoriyası, "qaz vurub qazan doldurmaq", öz ambisiyalarını yeritmək məkanı deyil axı!

Gəncə azarkeşləri artıq son tamamlama işləri görülən stadionlarında, nəhayət, əsl futbol, əsl "Kəpəz", bizim tanıdığımız, gözümüz öyrəşdiyi, fəxr etdiyi "Kəpəz"i görmək istəyirlər. Gəlin inanaq ki, Gəncə azarkeşləri tezliklə bu arzularına çatacaqlar.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
**Gəncə**

# MEDİA jurnalist yazıları müsabiqəsinə yekun vurub

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) 2025-ci il iyunun 18-də elan etdiyi "Fərdi jurnalist müsabiqəsi"nin nəticələri açıqlanıb.**




"Ən yaxşı reportaj", "Ən yaxşı ictimai-siyasi təhlil", "Ən yaxşı sosial-iqtisadi təhlil", "Ən yaxşı müsahibə", "Ən yaxşı mədəniyyət materialı", "Ən yaxşı köşə yazısı", "Ən yaxşı jurnalist araşdırması", "Ən yaxşı oçerk", "Ən yaxşı ictimai-siyasi reportaj", "Ən yaxşı sosial-iqtisadi reportaj" və "Ən yaxşı tematik (idman, mədəniyyət və s.) reportaj" nominasiyaları üzrə qaliblər müəyyənləşib.

Mükafatçılar arasında "Xalq qəzeti"nin də 2 əməkdaşı var.

***XQ***

# Naxçıvan təbii sərvətlər xəzinəsidir

## Bu barədə "Geomining – 2025", Beynəlxalq Geologiya-Mədənçilik Forumunda geniş söhbət açılıb



**Dünən Naxçıvanda "Geomining – 2025" Beynəlxalq Geologiya-Mədənçilik Forumu keçirilib. "Naxçıvan Saray"da təşkil edilən məclisin iştirakçıları əvvəlcə muxtar respublika ərazisində filiz və qeyri-filiz faydalı qazıntı yataqlarından götürülmüş süxur, mineral resurslar və tikinti materialları nümunələri, eləcə də diyarımızın təbiət zənginliklərini özündə əks etdirən rəsm əsərlərindən ibarət sərgiyə baxıblar.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli forum iştirakçılarını salamlayaraq bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikanın iqtisadi və ekoloji tarazlığının təmin edilməsi əhatəli əksini tapıb. Bu sənəddə ətraf mühitin mühafizəsi, təbii sərvətlərin səmərəli istifadəsi və geoloji tədqiqatların müasir texnologiyalar əsasında aparılması əsas prioritetlərdən biri kimi müəyyən edilib. Bu prinsip geologiya və mədənçilik sahəsində həyata keçirilən hər bir layihədə rəhbər tutulur.

Fuad Nəcəfli diqqətə çatdırıb ki, muxtar respublikada son 2 ildə qeyri-filiz və inşaat materialları yataqlarının axtarış, təftiş və qiymətləndirməsi, yeraltı suların monitorinqi, qara, əlvan və nəcib metalların axtarışı, yenidən qiymətləndirilməsi üzrə çöl və kameral işlər görülüb. 55 yataqda təftiş və yenidən qiymətləndirmə işləri aparılıb, 6 yeni yataq kəşf edilib. Çöl materialları əsasında 298 mineral su bulağının təftişi aparılıb, 14 mineral bulaq investisiya üçün təklif olunub. Bu istiqamətdə işlər davam etdirilir.

Ağdərə-Nəsirvaz filizləşmə sahəsində layihə üzrə nəzərdə tutulmuş bütün işlər icra olunub. Babək rayonu ərazisindəki Xal-Xal sahəsində cari ildə çöl geoloji kəşfiyyat işlərinə başlanılıb. "Parağaçay", "Qapıcıq" molibden və "Gümüşlü" polimetal yataqlarında beynəlxalq standartlara uyğun geoloji qiymətləndirmə işlərinin həyata keçirilməsi də "Dövlət Proqramı"nın əsas istiqamətlərindən biridir. Muxtar respublika ərazisində ilk dəfə olaraq 2023-cü il 7 iyul tarixindən etibarən 11 qeyri-filiz faydalı qazıntı yatağı üzrə 65 hektar sahə auksiona çıxarılıb, təqribən 1 milyon manata yaxın vəsait büdcəyə daxil olub.

Forumu geologiya və mədənçilik sahəsində dünyanın müxtəlif ölkələrindən olan mütəxəssislərin, alimlərin və dövlət qurumlarının nümayəndələrinin bir araya gəldiyi mühüm bir platforma kimi dəyərləndirən səlahiyyətli nümayəndə Fuad Nəcəfli vurğulayıb ki, burada müzakirə ediləcək məsələlər təkcə Azərbaycanın deyil, həm də regionun və bütövlükdə qlobal mədənçilik sektorunun gələcək inkişaf perspektivlərinə yönəlib. Beynəlxalq qiymətləndiricilərin dəvət olunmasında əsas məqsəd filiz yataqlarının geoloji potensialının obyektiv və beynəlxalq qəbul olunmuş metodologiyalara əsaslanaraq qiymətləndirilməsi, yüksək dəqiqlikli geoloji məlumat bazasının formalaşdırılması və investisiya üçün açılmasıdır.

Beynəlxalq Forumda Türkiyənin energetika və təbii sərvətlər nazirinin müavini Abdullah Tancan, Özbəkistan EA-nın vitse-prezidenti, Abdurazak Mirzayev, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited" şirkətinin prezidenti və baş icraçı direktoru Reza Vəziri çıxış ediblər. Muxtar Respublikanın ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev Naxçıvan Muxtar Respublikasında geoloji kəşfiyyat və dağ-mədən sahəsində görülmüş işlər barədə məlumat verib.

Forumun Naxçıvanda keçirilməsinin xüsusi əhəmiyyətinə toxunularaq bildirilib ki, bura Azərbaycanın ən zəngin geoloji strukturuna malik bölgələrindən biridir. Türkiyə, Azərbaycan, o cümlədən Naxçıvan dünyanın əsas metallogenik qurşaqlarından biri olan Alp-Himalay Orogenik qurşağında yerləşir. Birgə səylər hər iki qardaş ölkə üçün olduqca mühüm nəticələr verəcək. Bu prosesdə, şübhəsiz, ən vacib addım Naxçıvanda həyata keçiriləcək layihə olacaq.

Beynəlxalq forum mövzuya dair panel müzakirələrlə öz işini davam etdirib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 153 (30847) 26 iyul 2025-ci il, şənbə

## İDMAN

### Azərbaycan atıcıları Avropa finalında

**Şimali Makedoniyada keçirilən "Skopye-2025" XVIII Avropa Gənclər Yay Olimpiya Festivalında güllə atıcılığı yarışları davam edir.**

Milli Olimpiya Komitəsindən mətbuata bildirilib ki, 10 metr məsafəyə pnevmatik tapançadan duet yarışlarında Azərbaycanı təmsil edən Oleq Kerjankin və Leyli Əliyeva parlaq çıxışla yadda qalıblar.

Belə ki, komanda üzvlərimiz 53 xalla final mərhələsinə vəsiqə qazanıblar. Komanda bu nəticə ilə həm də Avropa rekordunun müəllifi olub.

### Cüdoçularımızın 3 medalı



**Azərbaycan cüdoçusu Elcan Hacıyev Almaniyanın Reyn-Rur regionunda keçirilən Ümumdünya Yay Universiadasında yarımfinala yüksəlib. 90 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız dörddəbir finalda litvalı Auqustas Sluterisə ipponla qalib gəlib.**

Bu gün mübarizəyə qoşulan digər 4 cüdoçumuz isə turnirlə medalsız vidalaşıb. Qeyd edək ki, hazırda Azərbaycanın aktivində 3 medal var. Bədii gimnastika üzrə qrup hərəkətləri komandası iki qızıl və bir gümüş mükafat əldə edib.

### UEFA reytinqimiz dəyişməyib

**Bu həftə UEFA reytinqində ölkəmizin reytinqinə 0,875 əmsal əlavə olunub. Bu, Azərbaycan klublarının avrokuboklarda göstərdiyi nəticələrdən sonra reallaşıb.**

Hazırda Azərbaycan 18,125 əmsalla 29-cu pillədədir. 28-ci pillədə Rusiya (18,299), 30-cu sırada isə Bolqarıstan (16,875) qərarlaşıb. UEFA reytinqinə İngiltərə (94,839) başçılıq edir.

Qeyd edək ki, "Qarabağ" UEFA Çempionlar Liqasının II təsnifat mərhələsində İrlandiyada Şelburn"u (3:0) məğlub edib. UEFA Konfrans Liqasının II təsnifat mərhələsində isə "Sabah" Moldovada "Petrokub"a (2:0), "Araz-Naxçıvan" isə Bakıda "Aris"ə (2:1) qalib gəlib. Bu turnirdəki üçüncü təmsilçimiz "Zirə" evdə "Hayduk"un (Xorvatiya) müqavimətini qıra bilməyib - 1:1.

***M.HACIXANLI***
***XQ***

## Bakı kəndləri

# Buzovna – Boz oğuzların məskəni

**Buzovna kəndi qədim yaşayış yerlərindəndir, burada əhali əsasən əkinçilik və bostançılıqla məşğul olub. Bu yaxınlarda hardasa oxudum ki, guya yerli camaat burada öskürəyə qarşı bitən buzovna adlı otdan istifadə etdikləri üçün kəndin adı Buzovna qalıb. Əlbəttə, gülünc və əsassız ehtimaldır.**






Bəziləri isə buranı axar-baxarlı məkan kimi Bəzanə adlandırırmış. Rəhimağa İmaməliyev "Bakı kəndləri" ensiklopedik məlumat kitabında bu kəndin tarixi haqqında doğru-dürüst bilgilər verir.

Məşhur şərqşünas Mirzə Kazım bəyin tələbəsi İlya Berezin Bakıətrafı kəndləri gəzmiş, burada tədqiqatlar aparmış və bu tədqiqatların nəticəsi olaraq "Abşeron yarimadasına səyahət" (1845) əsərini yazmışdır. Berezin Buzovnanın mənşəyini ilk dəfə elm aləminə açıqlamışdır. Onun gəldiyi nəticəyə əsasən, "Buzovna" adının mənası Boz oğuzlarla əlaqəlidir.

1842-ci ildə burada 1300 nəfərə yaxın əhali yaşayırmış. Abbasqulu ağa Bakıxanovun ulu babası



Bakı sultanı, polkovnik Dərgahqulu bəy Heybətbəy oğlu bu kənddə yaşayıb ömür sürmüşdür. "Abbasqulu ağa Bakıxanov" Fondunun sədri Hüseynağa müəllim bu haqda mənə danışmışdı. Dərgahqulu bəyin vəfatı tarixi 1738-ci il kimi göstərilir, doğum tarixi haqda isə dəqiq məlumat yoxdur.

Buzovnanın Boz oğuz tayfalarının yaşayış məskəni olması haqqında mərhum şair-qəzəlxan Məşədi Azərin "Oğuznamə" əsərində də bəhs edilir. Ötən əsrin əvvəllərində "Məcməüş-şüəra" ədəbi məclisinin rəhbəri olmuş Məşədi Azərin "Seçilmiş əsərləri" çapa hazırlanarkən "Oğuznamə"ni oxudum, orada aydın şəkildə yazılır ki, boz oğuzlar bu yerlərdə uzun sürə yaşamış, nəsil artırmışlar.

Professor Vilayət Quliyevin bağı Buzovnada, "Əli ayağı"na gedən yolun sağ tərəfində, istirahət düşərgəsinin yaxınlığındadır. Bir dəfə ondan müsahibə almaq məqsədilə bağında qonaq olmuşdum. O axşam çox şeylərdən danışdıq. Söhbət hərlənib-fırlanıb Buzovnanın tarixi üzərinə gəldi.

Yadımdadır, Vilayət müəllim dedi ki, alimlər bu kənddə tunc və dəmir dövrünə aid tapıntılar aşkara çıxarıblar, bu da onu göstərir ki, Buzovna olduqca qədim tarixə malik bir yerdir. Sonralar V.Quliyevin "Abşeron XIX-cu əsrdə" adlı geniş məqaləsini də tapıb oxudum.

Buzovnanın ərazisində Qafqaz Albaniyasının islamaqədərki dövrünə aid memarlıq abidəsinin qalıqları qalır. Bu tarixi abidə III əsrə aid edilir. Mən uşaq ikən, tumanpaça vaxtlarımda öz yaşıdlarımla, çox vaxt təmtək bu məbədin böyründən keçəndə o, qorxunc, qaramat görünüşü ilə həmişə məndə vahimə oyadırdı. El arasında bu dini abidəyə Nəsrani məscidi və ya Tərsa piri deyirlər, o ərazi Nəsrani məhəlləsi adlanır. Bu tarixi abidə Abşeronda Qafqaz Albaniyasına aid yeganə məbəddir. Çatlı-tağlı abidənin bir hissəsi indi qalır.

Bu yazını işləyərkən bəzi mənbələrə, Bakının tarixi ilə bağlı kitablara yenidən nəzər salası oldum. 1992-ci ildə "Həzrət Əli" qədəmgahı haqqında nəşr edilmiş balaca bir kitabçada xeyli maraqlı faktlara rast gəldim. Həmin kitabçada qeyd edilir ki, "Buzovnada vaxtilə Şirvanşahlar dövrünə aid (XV-XVI əsr) bürc-qala olmuşdur, həmin qala bu yaxınlaradək saxlanılırdı. Şirvanşahların yay iqamətgahı da həmin qalada yerləşirdi. Bu məlumatı görkəmli alim, Azərbaycan Elmlər Akademiyasının akademiki Y.A.Paxomov da təsdiq etmişdir. Qalanın kitabəsini görkəmli rus şərqşünası N.V. Xanıkov Buzovnadan aparıb 1853-cü ildə Peterburqdakı Asiya Muzeyinə təhvil vermişdir."

Buzovnada nəhəng bir məscid də var, bu məscidin taleyi keşməkeşli olub. O məscidin bünövrəsini Kərbalayı İmran qoyub, onu canlı şəkildə görən adamlardan indi heç biri qalmayıb. Onun doğum tarixi də heç kimə məlum deyil. Deyilənə görə, 4 oğlu, 1 qızı olub. Bir oğlu Böyük Vətən müharibəsində itkin düşüb. Hazırda nəvələri kənddə yaşayır. Anamın müəllimi olmuş Abbasqulu müəllim onu canlı surətdə görmüşdü, o da bir neçə il bundan əvvəl rəhmətə getdi. Əməkdar rəssam Rəfael Muradov onun təxəyyülünə əsasən Kərbəlayi İmranın portretini çəkib.

Deyilənə görə, "Kəbleyi" İmran ovsunçu imiş, yəni ilan tutanmış, həyətlərə girən ilanları onun əliylə tapıb çıxararmışlar. O, "Cümə məscidi"nin bünövrəsini qoyanda heç ağlına da gəlməzdi ki, tikəcəyi məscid müharibə illərində taxıl anbarı, sonra isə sovet hökuməti dağılanadək mağaza kimi istifadə ediləcək. Məscid evimizin qənşərindəydi, anam, atam hər gün məni ora nəsə almağa yollayırdılar. Sənaye malları, pal-paltar, texniki avadanlıq, bir sözlə, nə desən burda satılırdı. Buranı univermaq kimi eləmişdilər. Atam uşaqlıqda mənə yolkanı da, onun bər-bəzək əşyalarını da bu mağazadan almışdı, hətta burdan mənə bir rus gitarası da almışdı, qəpikləri yığmaq üçün alma fiqurlu daxıl, tütək, rezin top, daha nələr, nələr almışdı.

Anam tütəyi sındırırdı, rezin topu bıçaqla deşirdi, ağlayıb özümü yerə sürtür, hikkəmi yeridirdim; həmin şeylər yenidən alınırdı. Anam ger-geyimi, evə lazım olan nə varsa hamısını buradan alırdı. Bir dəfə atamın mənə verdiyi qəpikləri yığıb 3 rubla bir elektrik peçi aldım, anam o qədər sevindi ki... Bu addımı atmağım onun üçün gözlənilməz olmuşdu, ilk dəfə idi ki, balaca uşaq qəpiyi-qəpiyin üstə yığıb evə nəsə alırdı. Düzdür, pulu özü qazanmamışdı, amma bilirdi ki, evdə ən çox nəyə ehtiyac var, inidən cəfakeşlik edir, qayğı çəkirdi.

"Kəblə" İmran "Cümə məscidi"nin bünövrəsini qoyduqdan sonra bənnalar Yusif, usta Xaliq, Kərim, Gülhəsən işə başlayırlar. Deyilənə görə, məscidin tikintisi üçün sal daşları at arabaları ilə uzaq məsafədən gətirirmişlər. 1900-1906-cı illərdə erməni-müsəlman davası qızışır və məscidin tikintisi yarımçıq qalır. 1918-ci ildə sabunçulu xeyriyyəçi Hacı Əhədulla tikintiyə külli miqdarda pul buraxır, ustalar həvəslə qollarını çırmayıb işə başlayır, yenə ermənilər şəhərdə aranı qarışdırırlar, iş bu dəfə də yarımçıq qalır. O vaxt hələ məscidin günbəzi, minarəsi qoyulmamışdı. Məscid hasar tərəfdən daş piltələrlə üzlənib, həm iç, həm də bayır tərəfindəki divarlarında ərəbcə işlənmiş daş kitabələr var.

2007-ci ildə Buzovna sakinlərinin "Cümə məscidi"ndə bərpa işlərinin başa çatdırılması ilə bağlı Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya müraciəti tez bir zamanda öz həllini tapdı. Həmin ilin fevralında başlanan yenidənqurma işləri qısa vaxtda başa çatdırıldı, məscid dekabrın 19-da 2009-cu ildə istifadəyə verildi. Məscidin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etdilər.

Daha bura taxıl anbarı deyildi, univermaq deyildi, buranın divarlarında azan səsi dolaşırdı.

***Kənan HACI,***
***yazıçı-publisist***

## Hava

### Abşeronda yağmursuz, bölgələrdə yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var.**

Şimal-qərb küləyi əsəcək, gündüz cənub-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 23-27, gündüz 33-37 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 758 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntı tədricən kəsiləcək. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq.

Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-27, gündüz 35-40, dağlarda gecə 10-15, gündüz 22-26 dərəcə isti olacağı ehtimal edilir.

***Q.QASIMOV***
***XQ***

### "Binəqədi İTD" ASC səhmdarlarının nəzərinə!

20 oktyabr 2025-ci il saat 12.00-da, "Binəqədi İTD" ASC səhmdarlarının illik ümumi yığıncağı Abşeron rayonu, Şamaxı şossesi 46 nömrəli ünvanda yerləşən ərazidə (inzibati bina olmadığı üçün ) keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Təşkilati məsələlər.
2. Müəssisənin nizamnamə kapitalında dəyişiklik edilməsi .
3. Digər cari məsələlər.

Yığıncağın gündəliyində nəzərdə tutulmuş məsələlərlə bağlı materiallar səhmdarların elektron ünvanlarına göndəriləcəkdir.

Yaranan əlavə suallarla əlaqədar aşağıdakı e-mail ünvanına müraciət etmək xahiş olunur: binagadiitdasc@gmail.com.

# Kürdəmirdə "Bostan fesivalı"

**Dünən Kürdəmir Rayon İcra Hakimiyyətinin və Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin birgə təşkilatçılığı ilə "Bostan Fesivalı" keçirilib.**



Şəhərin Heydər Əliyev prospektində icra hakimiyyətinin inzibati binasının qarşısında təşkil olunan festivalda rayonda əsasən bostançılıq fəaliyyəti ilə məşğul olan fermerlər, digər məhsul istehsalçıları iştirak edib, stendlərdə maraqlı sərgilər, müsabiqələr, yerli mətbəx təqdim olunub. Pəhlivan və kəndirbazın çıxışı maraqla izlənilib. Konsert proqramında rayonun incəsənən ustaları və müğənni, xanəndə Azərbaycan Dövlət Televiziyasının və Azərbaycan Muğam Mərkəzinin solisti Mirələm Mirələmov da iştirak edib.

Festivalda Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov, Azərbaycan Respublikası Milli Məclisinin deputatları Jalə Əliyeva, Əminə Ağazadə, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov, Aqrar, Ekologiya və Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyinin sədr müavini Fuad Məmmədov, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun İdarə Heyətinin sədri Elmar Allahverdiyev çıxış edərək qeyd ediblər ki, rayonda təşkil olunmuş möhtəşəm "Bostan Festivalı"nın




rayonda aqro-turizm potensialının artırılmasına, yerli kənd təsərüffatı imkanlarının tanıdılmasına, fermerlər və sahibkarlar arasında işgüzar əlaqələrin genişləndirməsinə, eləcə də rayonun sosial-iqtisadi və mədəni inkişafına müsbət təsir göstərəcək, bostan bitkilərinin brendləşməsinə, rayonun turizm və mədəni potensialını önə çıxaracaqdır.

Festival "Aqrar sahədə dövlətin maliyyə mexanizmləri" panel müzakirə ilə davam edib. Panel müzakirədə çıxış edənlər Kürdəmir rayonunda ilk dəfə təşkil olunan bu festivalın bostançılıq fəaliyyəti ilə məşğul olan fermerlərin innovativ həllərə əsaslanan texnoloji yeniliklərə əlçatanlığının təmin olunması və təşviqi, bostançılıq sahəsində fəaliyyət göstərən şirkətlər arasında təcrübə mübadiləsi, qarşılıqlı faydalı işgüzar görüşlərin keçirilməsi, dövlət və özəl qurumlar, elmi-tədqiqat müəssisələri arasında əməkdaşlığın gücləndirilməsinə səbəb olacağını vurğulayıblar.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3330
SİFARİŞ 1513
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00